HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

№ 10 (904) ▪ 14 mart 2018 www.vergiler.az Qiyməti: 60 qəp.



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

# ATƏT Parlament Assambleyası Azərbaycanla uğurlu əməkdaşlıqdan məmnundur

·Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 12-də ATƏT Parlament Assambleyasının sədri Georgi Tseretelinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.



Görüşdə Azərbaycan ilə ATƏT Parlament Assambleyası arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirilib, Assambleyanın İpək Yoluna Dəstək Qrupunun ilk beynəlxalq sessiyasının Bakıda təşkil olunmasının önəmi vurğulanıb və bunun əməkdaşlığın möhkəmlənməsi işinə töhfə verəcəyi qeyd edilib. Görüşdə, eyni zamanda, ATƏT Parlament Assambleyası sessiyalarından birinin ölkəmizdə təşkil olunacağı məmnunluqla diqqətə çatdırılıb.

Söhbət zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə də toxunulub. Dövlətimizin başçısı qeyd edib ki, Ermənistanın Azərbaycana qarşı işğalına son qoyulmalı və bu münaqişə ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Görüşdə, eyni zamanda, Azərbaycanda qarşıdan gələn prezident seçkilərinə də toxunulub. Prezident İlham Əliyev bu seçkilərin ədalətli, şəffaf şəkildə keçiriləcəyinə və Azərbaycan xalqının iradəsini əks etdirəcəyinə əminliyini ifadə edib.

Georgi Tsereteli Bakıda gördüyü inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını, Azərbaycanın iqtisadi uğurlarının böyük maraq doğurduğunu və bunun ümumilikdə bütün regionun inkişafına töhfə verdiyini vurğulayıb. Söhbət zamanı, həmçinin, əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

# Bakı Şəhər Statistika İdarəsinin yeni inzibati binası istifadəyə verilib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dövlət Statistika Komitəsinin Bakı Şəhər Statistika İdarəsinin yeni inzibati binasının açılışında iştirak edib. Bildirilib ki, yeni binanın istifadəyə verilməsi şəhər Statistika İdarəsinin icarə əsasında müxtəlif ünvanlarda müasir tələblərə cavab verməyən binalarda yerləşən rayon şöbələrinin vahid təşkilati-struktur formasında fəaliyyət göstərməsinə və əməkdaşların iş şəraitinin əsaslı surətdə yaxşılaşdırılmasına xidmət edəcək. Qeyd olunub ki, Komitənin 2002-ci ildə yaradılan internet səhifəsi istifadəçilərin tələbatının maksimum təmin olunması üçün 2017-ci ildə yenilənib və əhəmiyyətli şəkildə təkmilləşdirilib. Hazırda hər gün orta hesabla 3 minə yaxın istifadəçi bu səhifədən istifadə edir. Bununla yanaşı, Komitənin internet səhifəsi ilə iqtisadi rayonlar, rayon və şəhərlər üzrə məlumatların elektron xəritə vasitəsilə yayılması da həyata keçirilir. 2015-2016-cı illər üzrə iqtisadiyyatın əsas sahələrini əhatə edən 44 statistik göstəricinin əks olunduğu xəritə istifadəçilərə Azərbaycan və ingilis dillərində təqdim olunub.

Prezident İlham Əliyevə məlumatların keyfiyyətinə nəzarət cədvəllərinin və qiymət statistikası üzrə məlumatların hazırlanması prosesi barədə də məlumat verilib. Bildirilib ki, keyfiyyətə nəzarət cədvəllərinin tətbiqində əsas məqsəd statistik vahidlər tərəfindən təqdim edilən ilkin məlumatlarda baş verən xətaları vaxtında aşkar etmək və onları aradan qaldırmaqdan ibarətdir. Göstəricilərin müqayisə olunduğu keyfiyyətə nəzarət cədvəlləri statistikanın müxtəlif sahələrinə aid olan vacib 26 rəsmi statistika hesabatı formasını əhatə edir. Statistik məlumatların keyfiyyətinin onlayn yoxlanılması Komitənin rəsmi internet səhifəsi vasitəsilə «E-hesabatlar» və ya «E-xidmətlər» bölməsinə daxil olmaqla həyata keçirilir. Sistemin tətbiqində keyfiyyətə nəzarət cədvəlləri xüsusi əhəmiyyət daşıyır. Bunun məntiqi nəticəsi olaraq, 2017-ci ilin martında bu sahədə dünya liderlərindən olan İsveçrənin «SGS» şirkətinin auditorlar qrupu tərəfindən aparılan auditdən sonra Dövlət Statistika Komitəsinin aparatı və keyfiyyətin idarə edilməsi sisteminin tətbiq edildiyi 13 yerli statistika orqanı rəsmi statistika məlumatlarının istehsalı və yayılması sahəsində ISO 9001:2015 beynəlxalq uyğunluq sertifikatına layiq görülüb. Azərbaycanın Milli Statistika Sisteminin BMT-nin, Avropa İqtisadi Komissiyasının, Avrostatın, Avropa Azad Ticarət Assosiasiyasının ekspertləri tərəfindən aparılan auditin nəticələrinə dair hesabatda da keyfiyyətə nəzarət cədvəlləri yüksək qiymətləndirilib. Qiymət statistikası üzrə istehsal prosesi də beynəlxalq standartlar əsasında qəbul edilən metodologiyaya uyğun olaraq həyata keçirilir. İlkin mərhələdə qiymətlərin müşahidəsinin təşkili üçün məhsul növləri müəyyənləşdirilərək istehlak səbəti formalaşdırılır. Hazırda bu iş 520 adda məhsul və xidmət növünü əhatə edən istehlak səbəti üzrə həyata keçirilir. İstehsal prosesinin növbəti mərhələsində müşahidəyə cəlb olunacaq ticarət məntəqələri müəyyənləşdirilir. Müşahidəyə ümumilikdə respublikanın bütün şəhər və rayonları üzrə 4 mindən çox ticarət məntəqəsi cəlb olunub. İlkin məlumatlar ölkənin bütün bölgələrini əhatə edir və hər rayon üzrə istehlak qiymətləri indeksi hesablanır. Yekun göstəricilər aylıq ekspress məlumatlar, interaktiv cədvəllər, bülletenlər, illik məcmuələr vasitəsilə yayımlanır. Bütün məlumatlar Komitənin internet səhifəsində yerləşdirilir.

Prezident İlham Əliyev Azərbaycanın Dayanıqlı İnkişaf Məqsədləri üzrə milli məlumatlandırma portalı ilə də tanış olub. Bildirilib ki, portal BMT tərəfindən dayanıqlı inkişaf sahəsində müəyyən edilmiş 17 məqsəd, 169 hədəf və 244 göstərici barədə həm qlobal, həm də milli səviyyədə ətraflı məlumatın geniş auditoriyaya çatdırılması məqsədilə yaradılıb. Dayanıqlı İnkişaf Məqsədləri üzrə vahid milli onlayn məlumat mənbəyi olacaq portal Azərbaycan və ingilis dillərində fəaliyyət göstərəcək.

Sonra dövlətimizin başçısı binada yaradılan şəraitlə tanış olub.

# Azərbaycan dövləti humanizm prinsiplərini daim uca tutur

Mart ayının 9-da Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Talassemiya Mərkəzində olublar. Heydər Əliyev Fondunun «Talassemiyasız həyat naminə» proqramı çərçivəsində inşa edilən Mərkəzdə bugünədək görülən işlər, xəstələrin müalicəsi barədə məlumat verilib.



Mərkəzin direktoru Valeh Hüseynov 2009-cu ildən istifadəyə verilən bu şəfa ocağının xəstəliyə düçar olanların müalicəsində mühüm rol oynadığını, xəstələrə və onların ailələrinə mənəvi baxımdan böyük dəstək olduğunu diqqətə çatdırıb. Bildirilib ki, Talassemiya Mərkəzində aparılan islahatlar, göstərilən tibbi xidmətin təkmilləşdirilməsi istiqamətində görülən işlər, maddi-texniki bazasının gücləndirilməsi üçün hazırlanmış tədbirlər talassemiyalı xəstələrin müalicəsində, eyni zamanda profilaktikasında əhəmiyyətli rol oynayır. Azərbaycan Prezidentinin imzaladığı müvafiq fərmana əsasən, Səhiyyə Nazirliyinin tabeliyində olan Respublika Talassemiya Mərkəzinə publik hüquqi şəxs statusu verilməsinin qurumun fəaliyyətinin genişləndirilməsi və talassemiyalı xəstələrlə yanaşı, digər qan xəstələrinə xidmət göstərilməsi baxımından əhəmiyyəti qeyd olunub. Birinci vitse-prezident Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Mərkəzdə müalicə olunan uşaqlarla söhbət edib, onların müalicəsinin gedişi ilə maraqlanıblar. Mehriban Əliyeva səhiyyə və sosial məsələlərin Heydər Əliyev Fondunun fəaliyyətində prioritet təşkil etdiyini, bu baxımdan da talassemiyalı xəstələrin müalicəsinə, o cümlədən bu xəstəliyin profilaktikası üzrə maariflәndirmə ilə bağlı dövlət səviyyəsində aparılan işlərə öz dəstəyini verdiyini bildirib.

## Rəsmi xronika

■ Prezident İlham Əliyev martın 13-də Rumıniyanın Baş nazirinin müavini xanım Ana Birçallı qəbul edib. Ölkəsinin Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu və bu istiqamətdə dəstəyini əsirgəməyəcəyini deyən A.Birçall Avropa üçün strateji əhəmiyyətli layihələrin həyata keçirilməsində Azərbaycanın mühüm rol oynadığını qeyd edib. Bildirib ki, Rumıniya Azərbaycanı regionda sabitliyə və təhlükəsizliyə töhfə verən ölkə kimi dəyərləndirir.

Görüşdə Azərbaycan-Rumıniya əlaqələrinin yüksək səviyyəyə çatdığı vurğulanıb, ölkələrimiz arasında münasibətlərin strateji xarakter daşıdığı və əməkdaşlığımızın böyük potensialının olduğu qeyd edilib. Söhbət zamanı beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəyin əhəmiyyəti vurğulanıb, qarşılıqlı sərmayə qoyuluşu və hər iki ölkədən olan şirkətlərin bu sahədə fəaliyyətinin genişləndirilməsinin vacibliyi önə çəkilib.

■ Dövlətimizin başçısı həmin gün Monteneqro parlamentinin sədri İvan Brayoviçin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. İki ölkə arasında yüksək səviyyədə əməkdaşlığın mövcud olduğunu qeyd edən Prezident İlham Əliyev bildirib ki, parlamentlərarası əlaqələr də ikitərəfli münasibətlərin inkişafında mühüm rol oynayır.

İvan Brayoviç Monteneqro ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin çox yüksək səviyyəsini vurğulayaraq, ölkəsinin qarşılıqlı əməkdaşlığın daha da möhkəmlənməsində maraqlı olduğunu diqqətə çatdırıb. Bildirib ki, Monteneqro Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləyir, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn çərçivəsində həllinin tərəfdarıdır.

■ Prezident İlham Əliyev martın 12-də ölkəmizdə rəsmi səfərdə olan Gürcüstanın Baş naziri Giorgi Kvirikaşvili ilə görüşüb. Azərbaycanın Gürcüstana sərmayə qoyan ölkələr arasında birinci yeri tutduğunu məmnunluqla qeyd edən Azərbaycan Prezidenti bu birinciliyi saxlamaqda qərarlı olduqlarını vurğulayıb.

Giorgi Kvirikaşvili bildirib ki, Azərbaycan Gürcüstanın strateji tərəfdaşıdır. Birgə layihələrin iqtisadi və geosiyasi baxımdan mühüm əhəmiyyətini qeyd edən qonaq regional formatlarda əməkdaşlığımızın çox vacib olduğunu qeyd edib, həm siyasi məsləhətləşmələr, həm də qlobal formatda münasibətlərimizin yüksək səviyyədə olduğunu vurğulayıb: «Gürcüstan hər zaman Azərbaycanın mövqeyini dəstəkləyir. Bu, bizim strateji əlaqələrimizin göstəricisidir».

Vergilər naziri Qubada vətəndaşları qəbul edib
səh. 2

Ən düzgün yol şəffaflıqdır
səh. 3

İntizamlı vergi ödəyiciləri vergi orqanlarının etibarlı tərəfdaşıdır
səh. 4

İnsan həyatı hər şeydən qiymətlidir
səh. 5

# Vergilər naziri Qubada vətəndaşları qəbul edib



Martın 10-da vergilər naziri Mikayıl Cabbarov Quba şəhərində yerləşən 3 saylı Ərazi Vergilər İdarəsinin inzibati binasında vətəndaşlarla görüşüb.

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2018-ci ilin mart ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq keçirilən qəbulda Quba, Qusar, Xaçmaz və Şabran rayon sakinləri iştirak ediblər. Qəbulda vətəndaşlar, əsasən, vergi orqanlarına işə qəbul, strukturlarda iş yerlərinin dəyişdirilməsi, vergi inzibatçılığı və digər məsələlərlə əlaqədar müraciət ediblər.

Vətəndaşların müraciətləri dinlənilib, əksər məsələlər yerindəcə həllini tapıb, bir sıra müraciətlərlə bağlı nazirliyin struktur bölmələrinə tapşırıqlar verilib.

# Vergilər Nazirliyində görüş

Martın 7-də vergilər naziri Mikayıl Cabbarov «Microsoft» Korporasiyasının Mərkəzi və Şərqi Avropa ölkələrində Dövlət Qurumları üzrə Biznes İnkişafının direktoru Evanqelos Xrisafidesin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Görüşdə «Microsoft» şirkəti və tərəfdaşlarının vergi və ədliyyə agentliklərində həyata keçirdikləri rəqəmsal transformasiya layihələri, «Microsoft» həllərinin tətbiqi sahəsində beynəlxalq təcrübə və informasiya texnologiyaları ilə bağlı məsələlər müzakirə edilib.

# «Made in Azerbaijan» brendi təşviq olunur

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində «Bir pəncərə» İxraca Dəstək Mərkəzinin təşkilatçılığı ilə «İxrac missiyalarında brend menecmentinin önəmi» - «Made in Azerbaijan» brendinin təşviqi mexanizmləri» mövzusunda təlim təşkil edilib.

Təlimin əsas məqsədi Azərbaycan sahibkarlarının öz məhsullarını xarici bazarlarda tanıtması, brendləşmə istiqamətində atılmalı addımlar olub. «Floor 6» şirkətinin təsisçisi Leyla Məmmədovanın apardığı təlimdə iştirakçılara brend menecmenti və onun önəmi, xarici bazarlara məhsul ixrac etmək istəyən sahibkarlar üçün müştərilərin müəyyənləşdirilməsi, brend planının önəmi və hazırlanması ilə bağlı yeni məlumatlar təqdim edilib.

«Bir pəncərə» İxraca Dəstək Mərkəzinin meneceri Nicat Hacızadə bildirib ki, sahibkarlar bu təlimlərdə aldıqları yeni bilikləri fəaliyyətlərinə tətbiq edirlər. Bu təlimlər onlara öz işlərini korporativ standartlar əsasında qurmağa da yardım göstərir. Leyla Məmmədova isə qeyd edib ki, təlim zamanı brend menecmenti vasitəsilə xarici bazarlarda yerli məhsulların daha peşəkar şəkildə tanıdılması, istehlakçı davranışlarının tədqiqi, brend planlarının hazırlanması və hesabatlar üzərində iş kimi strateji məsələlər diqqət mərkəzində olub, sahibkarlar «Made in Azerbaijan» brendinin xarici bazarlarda tanıdılması istiqamətində maarifləndirilib.

## Hörmətli vergi ödəyiciləri!

Novruz bayramı ilə əlaqədar 2018-ci il mart ayının 20-dən 26-dək qeyri-iş günləri olacağını nəzərə alaraq, ayın son günlərində müraciətlərin artması səbəbindən iş proseslərinin ahəngdarlığının təmin edilməsi məqsədilə mart ayının 20-dək cari vergi öhdəliklərini yerinə yetirməyiniz, habelə müvafiq vergi bəyannamələrini təqdim etməyiniz tövsiyə olunur. Vergilər Nazirliyi Sizi qarşıdan gələn milli bayramımız - Novruz bayramı münasibətilə təbrik edir və gələcək fəaliyyətinizdə uğurlar arzulayır!

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# Sadələşdirilmiş vergi ödəyicilərinə əlavə xidmətlər göstəriləcək

Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan 3 saylı Bakı «ASAN xidmət» mərkəzi sadələşdirilmiş vergi ödəyicilərinə əlavə xidmətlər göstərəcək. Mərkəzdə vergi ödəyicilərinə vergi hesabatlarının tərtib edilməsi üzrə xidmətlər təqdim olunacaq.

Vətəndaşlara rüblük sadələşdirilmiş, illik əmlak və muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi bəyannamələrinin verilməsi, şəhadətnamə-dublikatların onlayn sifariş edilməsi, onlayn kargüzarlıq bölməsinə gəlmiş məktubların vaxtında cavablandırılması, aylıq elektron qaimələrin göndərilməsi, əmək müqavilələrinin onlayn qeydiyyatı, Dövlət Sosial Müdafiə Fonduna rüblük hesabatın verilməsi, Dövlət Statistika Komitəsinə rüblük və illik hesabatların təqdim edilməsi kimi məsələlərdə kömək göstəriləcək.

# Xarici valyuta əməliyyatları qaydalarında dəyişikliklər edilib

«Azərbaycan Respublikasının rezident və qeyri-rezidentlərinin xarici valyuta əməliyyatlarının aparılması Qaydaları»nda dəyişikliklər edilib. Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasından (ASK) bildirilib ki, dəyişikliyə əsasən, hüquqi və fiziki şəxslər idxal müqavilələri üzrə ölkəyə idxalı təsdiq edən gömrük bəyannaməsini və ya idxal olunan xidmətlərin göstərilməsini təsdiq edən sənədi 180 gün deyil, 270 gün müddətində banka təqdim etməlidirlər. Bundan əvvəl avans yolu ilə ödənişin aparıldığı gündən bu müddət 180 gün idi. Bu müddət ərzində mallar idxal edilmədikdə, xidmətlər göstərilmədikdə və ya qabaqcadan ödənilmiş məbləğ geri qaytarılmadıqda həmin şəxsə qarşı cərimə tətbiq olunurdu. Bəzi hallarda sahibkarlar obyektiv səbəblər üzündən ödənişin aparıldığı gündən 180 gün müddətində malların ölkəyə idxalını həyata keçirə bilmirdi və onların barəsində cərimə formasında inzibati tənbeh tədbiri seçilirdi.

Qeyd edək ki, ASK sahibkarlar tərəfindən daxil olan çoxsaylı müraciətləri nəzərə alaraq, ötən ay «Azərbaycan Respublikasının rezident və qeyri rezidentlərinin xarici valyuta əməliyyatlarının aparılması Qaydaları»nda dəyişikliklərin edilməsini aidiyyəti dövlət qurumlarına təklif etmişdi. Təkliflərdən biri də «Azərbaycan Respublikasının rezident və qeyri rezidentlərinin xarici valyuta əməliyyatlarının aparılması Qaydaları»nda 4.3.1.3. maddəsində nəzərdə tutulmuş 180 gün müddətinin artırılması ilə bağlı idi.

# Tehranda Dövlət Komissiyasının iclası keçirilib

Martın 13-də Tehranda Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının 12-ci iclası keçirilib. İclasda iştirak edən Azərbaycanın iqtisadiyyat naziri, Dövlət Komissiyasının həmsədri Şahin Mustafayev bildirib ki, Azərbaycan-İran əlaqələri ortaq dinə, tarixə və adət-ənənələrə əsaslanır və xalqlarımızı sıx əlaqələr birləşdirir. Dövlət başçılarının siyasi iradəsi nəticəsində son 4 ildə Azərbaycan-İran əlaqələri xüsusilə inkişaf edib və yeni mərhələyə qədəm qoyub.

Komissiyanın ötən iclasından keçən dövrdə görülmüş işlər barədə məlumat verən Ş.Mustafayev qeyd edib ki, 2017-ci ildə ölkələrimiz arasında ticarət dövriyyəsi 16 faiz artıb, Azərbaycanda qeydiyyatdan keçmiş İran şirkətlərinin sayı 700-ü ötüb, İranın Azərbaycana yatırdığı investisiyaların həcmi 3,1 milyard ABŞ dollarına çatıb. Bildirilib ki, 2016-cı ildə Neftçala Sənaye Zonasında təməli qoyulmuş birgə avtomobil istehsalı zavodunda işlər tamamlanmaq üzrədir. İran Prezidenti Həsən Ruhaninin martın sonunda Azərbaycana gözlənilən səfəri çərçivəsində avtomobil zavodunun açılışı olacaq. Pirallahı Sənaye Parkında İranla birgə reallaşdırılan əczaçılıq zavodunun yaradılması istiqamətində isə işlər davam edir. Azərbaycan-İran əməkdaşlığının mühüm istiqamətlərindən olan «Şimal-Cənub» nəqliyyat dəhlizi üzrə işlər intensiv şəkildə aparılır. Azərbaycanda 8,3 kilometr, İranda 1,4 kilometr dəmir yolu, Astara çayı üzərində dəmir yolu körpüsü istismara hazırdır və artıq sınaq qatarlarının hərəkəti həyata keçirilib.

Qeyd olunub ki, ötən müddət ərzində İrandan Azərbaycana gələn turistlərin sayı xeyli artıb. 2016-cı ildə bu göstərici 247 min olduğu halda, ötən il 363 min olub. Azərbaycana gələn turistlərin sayına görə iranlılar 3-cü, «ASAN viza» vasitəsilə viza alan əcnəbilər arasında isə İran vətəndaşları 1-ci yerdədir.

İran İslam Respublikasının iqtisadi işlər və maliyyə naziri, Dövlət Komissiyasının həmsədri Məsud Kərbasian ölkəsinin Azərbaycanla əlaqələrin genişlənməsinə xüsusi önəm verdiyini, xüsusən son illərdə bu əlaqələrinin yüksək səviyyəyə çatdığını qeyd edib. O, hər iki ölkənin dövlət başçısının İran-Azərbaycan əlaqələrinin inkişafına və Dövlət Komissiyasının işinə dəstək göstərdiyini vurğulayaraq bildirib ki, Azərbaycan-İran Dövlət Komissiyasının fəaliyyəti digər ölkələrlə olan komissiyalarla müqayisədə bütün sahələri əhatə edir. İranlı nazir diqqətə çatdırıb ki, ölkələrimiz arasında ticarət dövriyyəsinin artması müsbət haldır. Bundan başqa, kənd təsərrüfatı, turizm, tranzit və yükdaşımalar sahələrində də əlaqələrin inkişafı üçün potensial böyükdür.

# Gizli əməkhaqqı: uduzan kimdir?

**"Hər bir insan səhv edə bilər. Vergi hesabatını dolduran istənilən mühasib də səhv edə bilər. Lakin saxta məlumatları bilərəkdən vergi hesabatına daxil edən mühasib bilməlidir ki, o, maddi-məsul şəxs kimi törədilmiş cinayətin iştirakçısıdır. Mən buradan bütün maddi-məsul şəxsləri xəbərdar etmək istəyirəm: nə qədər gec deyil, bu işi özünüz dayandırın. Çünki bunu biz dayandırmalı olsaq, qanunun tam ciddiliyi ilə hərəkət edəcəyik".**

Sahibkarlara, işəgötürən təşkilatlara ünvanlanan bu çağırış vergilər naziri Mikayıl Cabbarovun fevralın 13-də «Vergilər. Şəffaflıq. İnkişaf» mövzusunda keçirilən konfransdakı çıxışındandır. Konfransda qeyri-rəsmi məşğulluğa və ikili mühasibata qarşı sərt tədbirlərin görüləcəyi də bəyan edilib. Bildirilib ki, vergi orqanları ödəyiciləri eşitməyə, onların qanuni tələblərinin həllinə kömək göstərməyə hazırdır. Vergi ödəyicilərindən isə intizamlı olmaq və vergi qanunvericiliyinin tələblərinə tam əməl etmək tələb olunur.

Bu, həm də qanunsuz sahibkarlıq fəaliyyəti göstərən, qeyri-rəsmi məşğulluğa şərait yaradan, işçilərə gizli əməkhaqqı verən və ya əməkhaqqının tam məbləğini sənədlərdə göstərməyən şirkətlərə çağırışdır. Vergilər naziri deyib ki, hazırkı şəraitdə vergi orqanları qeyri-rəsmi məşğulluğun və qanunsuz sahibkarlığın qarşının alınması üçün yalnız inzibati tədbirlərdən istifadə edir: «Ancaq bunun bir limiti var və bu limit bitmək üzrədir. Ona görə də bu halları yaradan amillər vergi ödəyiciləri ilə birlikdə aradan qaldırılmalıdır. Kiçikliyindən və ya böyüklüyündən asılı olmayaraq, hər bir vergi ödəyicisi öz öhdəliyini düzgün yerinə yetirməlidir. İkili mühasibatlığın aparılması, dövriyyəyə cəlb edilən vəsaitlərin gizlədilməsi, vergidən yayınma hallarının qarşısı alınmalıdır».

Bəzi işəgötürən təşkilatların işçilərə verdiyi real əməkhaqqının məbləğinin gizlədilməsi heç kəsə sirr deyil. Bunu aidiyyəti dövlət qurumlarının apardığı monitorinqlər də dəfələrlə təsdiq edib. O da hər kəsə bəllidir ki, Bakıda və bölgələrdə tikilməkdə olan çoxmənzilli yaşayış binalarında işçiləri müqaviləsiz çalışdıran şirkətlərin sayı kifayət qədərdir.

### Bəs gizli məşğulluğun, ikili mühasibatlığın qarşısını necə almalı?

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə hesab edir ki, hazırkı şəraitdə dövlət strukturlarının əsas hədəfi düzgün məşğulluq siyasəti qurmaqla real sektorda yeni iş yerləri yaratmaq və gizli məşğulluğun qarşısını almaq olmalıdır: «İqtisadiyyatda elə sahələr var ki, yeni iş yerləri yaradaraq büdcə gəlirlərini artıra bilərik. Bir məsələyə də diqqəti atırmalıyıq: əmək müqaviləsinin bağlanması, «kölgə» iqtisadiyyatının azaldılması, əmək nizamının gücləndirilməsi büdcə gəlirlərini artıra bilər».

### Hər bir işçi əmək münasibətlərinə özü nəzarət etməlidir

Z.Səmədzadənin sözlərinə görə, işçilərin müqaviləsiz işlədilməsi, əməkhaqqının aşağı göstərilməsi halları geniş yayıldığından ölkədə dayanıqlı inkişaf məqsədlərinə nail olmaq çətinləşir. Vergi ödəyicilərinin sayının sivil qaydalarla artırılmasına nail olmaq üçün ilk növbədə gizli məşğulluğa səbəb olan amillər aradan qaldırılmalıdır: «Bu problem hələ 1980-ci illərdə vardı, qonşu ölkələrlə müqayisədə Azərbaycanda tikinti-quraşdırma işlərinin həcmində o qədər fərq olmadığı halda, işçilərin sayı iki-üç dəfə az idi: tikintidə çalışan işçilərin sayı rəsmi qeydiyyatdan gizlədilirdi. Bu gün də belə hallar çoxdur. Həm də təkcə tikinti sektorunda deyil, iqtisadiyyatın müxtəlif sahələrində. Ona görə də əmək münasibətlərinin təkmilləşdirilməsi yolu ilə bu sahədə şəffaflığı artırmaqla ölkənin imicini də yüksəltməliyik. Gizli məşğulluq, ikili mühasibat vergi ödəyicilərinin sayının azalmasına gətirib çıxaran amillərdəndir və bu, respublikanın imicinə də mənfi təsir göstərir. Necə ola bilər ki, faktiki işləyən insanların sayı və əmək qabiliyyətli əhalinin faiz göstəriciləri yüksək olsun, bu qədər yeni iş yerləri yaradılsın, amma rəsmi işçilərin sayı kifayət qədər olmasın. Bu məsələ mütləq nəzarətə götürülməlidir».

Azərbaycanda qeyri-rəsmi məşğulluğun səviyyəsinin artması səbəbləri sırasında muzdlu işlə bağlı ödəmə mənbəyində verginin və sosial ayırmaların dərəcələrinin yüksək olması da göstərilir. Sahibkarlıq fəaliyyətində xərclər yüksək olduğuna görə, işəgötürənlər işçiləri rəsmi qeydiyyata almaqda maraqlı deyillər. Ziyad Səmədzadə sahibkarların bu arqumentini kifayət qədər əsaslı sayır və hesab edir ki, qeyri-rəsmi məşğulluğun aradan qaldırılması üçün müəyyən yumşaldıcı tədbirlərə ehtiyac var: «Əgər biz yaxşı nəticəyə nail olmaq istəyiriksə, müəyyən addımlar atmalıyıq. İlk növbədə korrupsiyaya qarşı mübarizə tədbirləri gücləndirilməlidir. Həmçinin gizli məşğulluğun, ikili mühasibatlığın qarşısını almaq üçün vergi və sosial ödənişlər məsələsinə də baxmaq olar.

Gizli məşğulluq probleminin həlli həm də işçilərin özündən asılıdır: gələcəkdə pensiyaya çıxacaq vətəndaşların nə qədər pensiya alacağı onların işlədiyi müddətdə ödədiyi sosial sığorta haqlarının məbləğindən asılı olacaq. Ona görə də hər bir işçi işəgötürənlə öhdəliklərin qanuni şəkildə rəsmiləşməsinə çalışmalıdır. Dərk etmədir ki, aldığı rəsmi maaşla gələcəyinə təminat yaradır: rəsmi maaşı nə qədər çox olsa, alacağı pensiya da buna uyğun şəkildə yüksək olacaq...».

İqtisadçı ekspert Samir Əliyev hesab edir ki, bu cür problemlərin həlli üçün müvafiq dövlət qurumları əmək hüquqlarının pozulması məsələsini ciddi nəzarətə götürməlidir. Onun sözlərinə görə, ikili mühasibat və qeyri-rəsmi məşğulluğun aradan qaldırılması üçün təkcə vergi sistemində şəffaflığın təmin edilməsi kifayət deyil: «Bu məsələ kompleks şəkildə həll edilməlidir. Bunun üçün real sektordakı problemləri - məsələn, vergi uçotundan danışırıqsa, məhsul istehsal olunandan onun bazara çıxışına qədər bütün proseslər sənədləşdirilməlidir. Çünki bütün bu proseslərin hamısı bir-biri ilə zəncirvari bağlıdır, bu zəncir hansısa mərhələdə qırılanda ümumi prosesə zərər dəyir. Bu baxımdan, gömrük sisteminin də tam şəffaf olması vacib şərtdir. Sahibkar satılan məhsulun sənədlərini təqdim edə bilmirsə, bu, intizamsızlığa, ödəyici ilə vergi orqanları arasında inamsızlığa, şəffaflığın pozulmasına gətirib çıxarır».

**Elxan SALAHOV**

# Ən düzgün yol şəffaflıqdır

**Vergilər Nazirliyinin apardığı islahatlarda vergi sistemində şəffaflığın təmin olunması, idarəetmə prinsiplərinin yenidən təşkili və müasir vergi inzibatçılığının formalaşdırılması, vergi ödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı etimadın yüksəldilməsi xüsusi əhəmiyyət kəsb edir.**

İslahatların əsas istiqamətləri barədə məlumatların sahibkarlara və ictimaiyyətə daha dəqiq və birbaşa çatdırılması, qarşıda duran işlərin əsas hədəfləri, eləcə də vergi ödəyicilərinin fikir və rəylərinin öyrənilməsi məqsədilə nazirliyin rəhbər vəzifəli şəxslərinin iştirakı ilə mart ayının 5-dən 9-dək silsilə görüşlər keçirilib. Bütün ərazi vergi orqanlarında, Vergilər Nazirliyi yanında Milli Gəlirlər, Bakı şəhəri Lokal Gəlirlər və Bakı şəhəri Kiçik Sahibkarlıqla İş departamentlərində açıq dialoq şəraitində keçirilmiş görüşlər zamanı əsas diqqət vergi islahatlarında həm vergi orqanlarının, həm də vergi ödəyicilərinin üzərlərinə düşən öhdəliklərə yönəldilib.

***Martın 7-də Bakı şəhəri Kiçik Sahibkarlıqla İş Departamentində qeydiyyatda olan 300-dən artıq sahibkarın iştirakı ilə keçirilən görüşdə vergilər nazirinin müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Sahib Ələkbərov*** çıxış edərək bildirib ki, ölkədə sahibkarlığa dövlət dəstəyi ildən-ilə güclənir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən sahibkarlar üçün əlverişli biznes mühitinin yaradılması istiqamətində davamlı tədbirlər görülür, onlara konkret iqtisadi məqsədlərə xidmət edən vergi güzəştləri verilir, istehsalın və ixracın təşviqi məqsədilə stimullaşdırıcı tədbirlər həyata keçirilir. Bu yaxınlarda Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyinin yaradılması da bu məqsədlərə xidmət edir. Vergi siyasətinin əsas hədəfləri iqtisadiyyatda sahibkarlığın rolunun daha da fəallaşdırılması, yeni istehsal və xidmət, ticarət sahələrinin yaradılması sayəsində dövlət büdcəsinə əlavə gəlirlərin daxil olmasının təmin edilməsidir. Bu prosesdə Vergilər Nazirliyinin məqsədi ölkəmizin iqtisadi inkişafına töhfə verən sahibkarlıq sinfinin fəaliyyətini stimullaşdıran inzibatçılıq alətləri tətbiq etmək, sahibkarlığın inkişafına dəstək verməkdir. Qeyd olunan məsələlər barədə fevral ayının 13-də «Vergilər. Şəffaflıq. İnkişaf» mövzusunda keçirilən konfransda vergilər naziri Mikayıl Cabbarovun verdiyi mesajları görüş iştirakçılarının diqqətinə çatdıran Sahib Ələkbərov qeyd edib ki, hazırda ölkəmizdə 917 min vergi ödəyicisi var, onların 30 mini ƏDV, qalanları isə sadələşdirilmiş vergi ödəyiciləridir. ƏDV ödəyicilərinin dövlət büdcəsinə ödədiyi vergilərin həcmi ümumi vergi daxilolmalarının təxminən 1/3-ni təşkil edir. Sadələşdirilmiş vergi ödəyicilərinin ödədiyi vergilərin həcmi ötən il 371,5 milyon manat olub və bu, ümumi vergi ödəmələrinin 5,3%-i deməkdir. İnkişaf etmiş ölkələrin əksəriyyətində bu rəqəm bir neçə dəfə yüksəkdir. Ona görə də kiçik sahibkarlığın inkişafı daha da gücləndirilməli, bu kateqoriyaya aid sahibkarların ödədikləri vergilərin həcmi artmalıdır. Büdcəyə ödənilən vergilərin həcminin artması ölkədə yaşayan hər bir vətəndaşın rifah halının daha da yaxşılaşmasında mühüm əhəmiyyətə malikdir. Ödənilən vergi müəllimin, həkimin, torpaqlarımızın müdafiəsini təmin edən əsgərlərin təminatının gücləndirilməsinə, vətəndaşlarımızın layiqli həyat şəraiti ilə təmin olunmasına sərf edilir. Ona görə də cəmiyyətin hər bir üzvündə könüllü vergiödəmə mədəniyyəti formalaşmalı, bu, insanların daxilindən gələn vərdişə çevrilməlidir.

Nazir müavini bildirib ki, 2018-ci il vergi sistemində yeni inzibatçılığa keçid ili kimi müəyyən edilib. Vergi xidmətinin qarşısında qoyulmuş yeni vəzifələrə və tələblərə uyğun olaraq vergi orqanlarına etimad yüksəldilməlidir: «Vergilər Nazirliyi biznes qurumları ilə faydalı və qarşılıqlı etimada əsaslanan əməkdaşlığın qurulmasında maraqlıdır. Nazirlik qarşı tərəfdən də eyni münasibəti gözləyir, hər bir sahibkarı dürüst, vicdanlı, şəffaf olmağa dəvət edir. Vergi ödəyicisi öz vəzifələrini və məsuliyyətini başa düşməli, unutmamalıdır ki, vergiləri vaxtında və tam həcmdə ödəmək Azərbaycan Respublikası Konstitusiyası ilə müəyyən edilmiş borcudur. Vergi orqanı vergi yığmır, dövlətin müəyyən etdiyi vergilərin sahibkarlar tərəfindən dövlət büdcəsinə ödənilməsinin təmin olunmasına nəzarət edir. Sahibkar elə işləməli, işini elə qurmalıdır ki, vergi orqanı onun təqdim etdiyi sənədlərə şübhə ilə yanaşmasın, fəaliyyətini araşdırmağa ehtiyac yaranmasın. Ən yaxşı və düzgün yol şəffaflıqdır. Şəffaflıq tərəflər arasında qarşılıqlı inam və etibarı artırır, biznes təmsilçisinə etimadı yüksəldir, inkişafa səbəb olur, iqtisadiyyatı gücləndirir».

Sahib Ələkbərov bir daha vurğulayıb ki, nazirlik vergi yığılmasından könüllü vergi ödənilməsinə keçidi qarşıya hədəf qoyub və bu yanaşma vergi ödəyicisinin ünvanına getmədən, ödəyicinin özünün vergiləri doğru, düzgün və dəqiq hesablayaraq büdcəyə ödəməklə vətəndaşlıq borcunu yerinə yetirməsini nəzərdə turur.

Qeyd olunub ki, hazırda qanunvericiliyin təkmilləşdirilməsi üçün sahibkarların, eləcə də ictimaiyyət nümayəndələrinin fikir və təklifləri öyrənilir. Bu prosesdə sahibkarlar təşəbbüskar olmalı, vergi qanunvericiliyi və inzibatçılığı ilə bağlı təkliflərini martın 31-dək nazirliyin müvafiq komissiyasına təqdim etməlidirlər.

Sahib Ələkbərov insan resurslarının inkişaf etdirilməsinin nazirlik üçün strateji məqsəd daşıdığını, vergi sistemində struktur və kadr islahatlarının davam etdiriləcəyini, peşəkar kadrlara üstünlük veriləcəyini vurğulayıb.

Tədbirin sonunda sahibkarları maraqlandıran məsələlər barədə ətraflı məlumat və izahlar verilib, suallar cavablandırılıb.

Vergi ödəyicilərini maraqlandıran əsas məsələlərdən birinin - vergi yoxlamalarının aparılmasında dəyişikliklər olunub-olunmayacağı ilə bağlı məsələyə aydınlıq gətirən nazir müavininin sözlərinə görə, artıq 3 aydır ki, Vergilər Nazirliyi yoxlamaları müvəqqəti olaraq dayandırıb, hazırda daha səmərəli vergi nəzarəti mexanizmlərinin tətbiqi üzərində iş gedir. Vergilər Nazirliyinin məqsədi yoxlama aparmaq deyil, nəzarət sistemində yeni yanaşmaların tətbiqi, vergi yoxlamalarının keyfiyyətinin və səmərəliliyinin artırılmasıdır: «Qarşıdakı dövrdə yoxlamaların sayı daha da azaldılacaq, amma bu o demək deyil ki, vergi nəzarəti olmayacaq. Hazırda vergi inzibatçılığı elə bir səviyyədədir ki, vergi orqanları yüksək elektronlaşdırma nəticəsində məsafədən idarəetmə metodu ilə riskli vergi ödəyicilərini aşkar edə bilir, ona görə də təsərrüfat fəaliyyətlərində problemləri olan, uçot işlərini düzgün qurmayan və riskli hesab edilən vergi ödəyiciləri qanunvericiliyin tələblərinə daha ciddi riayət etməlidirlər. Gələcəkdə yoxlamalar və sanksiyalarla üzləşməmək üçün sahibkarlar öz fəaliyyətlərindəki qanun pozuntularını aradan qaldırmalıdırlar. Qanunun tələblərinə uyğun olaraq riskli vergi ödəyicilərinin fəaliyyətinin araşdırılması məqsədilə müvafiq yoxlamalar aparılacaq».

Sahibkarlar bəzi təsərrüfat subyektləri tərəfindən xərcləri təsdiq edən sənədlər ala bilmədiklərindən elektron qaimə-fakturanın təqdim olunmasında çətinliklərlə üzləşdiklərini bildiriblər. Bu məsələ ilə bağlı bildirilib ki, bir sıra müəssisələr vergidən yayınmaq məqsədilə uçotu düzgün aparmır, sənədsiz işləməyə üstünlük verirlər. Elektron qaimə-fakturanın tətbiqi ilə bağlı aparılmış təhlillər təsdiqləyir ki, istehsalçı və idxalçı müəssisələr tərəfindən sənədlərin təqdim olunmasında heç bir problem yoxdur. Ticarət, xidmət, satış müəssisələri özləri müxtəlif bəhanələr gətirərək bu sənədləri almaq istəmirlər. Amma onlar gərək nəzərə alsınlar ki, bu istiqamətdə çox ciddi tədbirlər görüləcək. Şəffaflığın ən yaxşı vasitələrindən biri e-qaimə-fakturaya keçiddir, düzgün uçotun qurulmasıdır.

Vergi ödəyicilərinin karqo ilə bağlı üzləşdikləri problemlərə də aydınlıq gətirən Sahib Ələkbərov idxalla məşğul olan bəzi karqo şirkətlərinin fəaliyyətində pozuntuların olduğunu istisna etməyib. Bildirib ki, vergi və gömrük sənədlərini düzgün tərtib etməyən karqo şirkətləri tərəfindən gömrük orqanına təqdim olunan sənədlərdə uyğunsuzluqlar mövcuddur, bəzi hallarda isə saxta qaimələr təqdim edilir ki, bu da vergidən yayınmalara şərait yaradır. Ona görə də şəffaflığın təmin olunması məqsədilə bu sahədə yeni innovativ alətlərin tətbiqi üzərində iş aparılır. Nazirlikdə karqo fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri ilə işlərin araşdırılması və müvafiq tədbirlərin görülməsi məqsədilə xüsusi komissiya yaradılıb.

Tədbir zamanı nağdsız hesablaşmaların tətbiq olunduğu sahələr, nağd əməliyyatlara qanunla icazə verilən limitin həddi, icarə müqaviləsi zamanı vergi hesablanması, turizm agentləri tərəfindən qaimə-fakturanın tətbiqi mexanizmləri, obyektdə kodun açılması, vergi inzibatçılığının avtomatlaşdırılması və bu sahədə maarifləndirmə işlərinin artırılması, uçot və digər məsələlərlə bağlı sahibkarların təklifləri dinlənilib, onları maraqlandıran suallara aydınlıq gətirilib.

Sahibkarlarla görüşdən sonra S.Ələkbərov Bakı şəhəri Kiçik Sahibkarlarla İş Departamentinin işçiləri ilə müşavirə keçirərək vergilər naziri Mikayıl Cavvabovun vergi orqanlarının əməkdaşları qarşısında qoyduğu vəzifələrin məqsədlərini və mahiyyətini onlara çatdırıb, ölkənin vergi sisteminin qabaqcıl dünya standartları səviyyəsində fəaliyyət göstərə bilməsi üçün vergi müfəttişindən tutmuş yüksək vəzifəli məmura qədər ayrı-ayrılıqda hər bir əməkdaşın üzərinə ciddi öhdəlik və məsuliyyət düşdüyünü vurğulayıb.



**Şəffaflıq tərəflər arasında qarşılıqlı inam və etibarı artırır, biznes təmsilçisinə etimadı yüksəldir, inkişafa səbəb olur, iqtisadiyyatı gücləndirir**





**Vergi orqanı vergi yığmır, dövlətin müəyyən etdiyi vergilərin sahibkarlar tərəfindən dövlət büdcəsinə ödənilməsinin təmin olunmasına nəzarət edir**

---

Vergi orqanları rəhbərlərinin vergi ödəyiciləri, həmçinin ictimaiyyət nümayəndələri ilə dialoqunun davamı olaraq, Vergilər Nazirliyi yanında Milli Gəlirlər Departamentində təşkil edilmiş görüş vergi ödəyicilərini maraqlandıran məsələlərə aydınlıq gətirmək, xüsusi olaraq sahibkarların hüquqlarının müdafiəsinin daha da möhkəmləndirilməsi istiqamətində müzakirələr aparmaq məqsədi daşıyıb.

***Tədbirdə vergilər nazirinin makroiqtisadi və iqtisadi məsələlər üzrə müşaviri Xaqani Abdullayev, Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru Samirə Musayeva iştirak ediblər.***

Vergilər nazirinin müşaviri Xaqani Abdullayev vergi sistemində aparılan islahatların əsas məqamlarının xülasəsini verərək bildirib ki, bu gün vergi ödəyicilərinin qarşısında bir sıra tələblər qoyulub. Buraya:

- Vergilərin vaxtında və tam ödənilməsi;
- vergi öhdəliklərinin şəffaflaşdırılması;
- uçotun dürüst aparılması

daxildir.

Qeyd edilib ki, kiçik və böyüklüyündən asılı olmayaraq, hər bir vergi ödəyicisi öz vergi öhdəliyinə tam əməl etməli, ikili mühasibatın aparılmasına yol verməməli, vergiyə cəlb olunan dövriyyələrin gizlədilməsi, müxtəlif yollar və sxemlərlə vergidən yayınmalar tam aradan qaldırılmalıdır.

X.Abdullayevin sözlərinə görə, sənədləşmələr qaydasında olmadığı təqdirdə, vergi orqanları tərəfindən müvafiq sanksiyalar tətbiq ediləcək. Müəyyən çətinlikləri nəzərə alınaraq, vergi ödəyicilərinə ilin sonunadək vaxt verilir. 1 yanvar 2019-cu ildən bütün vergi ödəyiciləri tam şəffaf fəaliyyət göstərməlidirlər. Keçid dövründə vergi hesablamaları və ödənişləri real vəziyyəti əks etdirməklə həyata keçiriləcəkdir. Nazirin müşaviri yeni dönəmdə vergi orqanlarının da qarşısına qoyulmuş tələbləri tədbir iştirakçılarının nəzərinə çatdırıb: «Bu gün vergi orqanlarının ən ümdə vəzifəsi vergi ödəyicilərinə yüksək səviyyədə xidmət göstərməkdir. Sahibkarların öz vergi öhdəliklərini rahat yerinə yetirmələri üçün vergi ödəyicilərinə göstərilən xidmətlər onların gözləntilərinə və tələblərinə uyğun formada qurulacaq və təkmilləşdiriləcəkdir. Vergilər Nazirliyi ödəyicilərə kifayət qədər xidmətlər təklif edir və qarşılıqlı etimad şəraitində onları eşitməyə, qanuni tələblərinə baxmağa, kömək göstərməyə həmişə hazırdır».

X.Abdullayev vergi ödəyiciləri ilə münasibətdə onların hüquqlarının və qanuni mənafelərinin qorunmasına xüsusi diqqət yetirildiyini vurğulayıb: «Vergi orqanlarının səlahiyyət və məsuliyyət dairəsi dəqiqləşdiriləcək. Əsaslandırılmamış maliyyə sanksiyalarına yol verməmək üçün bütün mübahisəli hallar mütləq qaydada vergi ödəyicilərinin iştirakı ilə araşdırılacaq, Apelyasiya Şurasının fəaliyyəti fəallaşdırılacaq, vergi administrasiyası daha açıq şəkildə çalışacaqdır».

Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru Samirə Musayeva diqqəti vergi qanunvericiliyinə yönəldərək qeyd edib ki, qanunvericiliyin təkmilləşdirilməsində vergi ödəyiciləri də iştirak etməlidirlər. Müzakirə edilən mövzular:

- vergi ödəyicilərinin Azərbaycan mənbəyindən gəlirinin müəyyənləşdirilməsi;
- avansların alınması zamanı təsdiqləyici sənədin tətbiqi, avans zamanı ƏDV ödənişi;
- iş və xidmətlərin təqdim edilməsi zamanı e-qaimə-fakturanın tətbiqi ilə bağlı meydana çıxan problemlər;
- e-qaimə-fakturanın verilməməsi;
- gəlirin və xərcin tanınmaması;
- uçotun düzgün aparılmaması zamanı maliyyə sanksiyalarının tətbiqi kimi məsələləri əhatə edib.

Görüşdə, həmçinin, vergi ödəyicilərinin «Nağdsız hesablaşmalar haqqında» Qanunun tətbiqi ilə əlaqədar bank hesablarından vəsaitlərin nağdlaşdırılması, belə əməliyyatlara 1 faizlik sadələşdirilmiş verginin tətbiqi ilə bağlı yaranan çətinliklər, təsisçi payı məsələləri, banklar tərəfindən e-qaimələrin verilməsi, ictimai iaşə və pərakəndə ticarət fəaliyyəti sahəsində gəlirlərin və xərclərin uçotunun aparılması, əldə olunan malların, iş və xidmətlərin sənədləşdirilməsi, uçotun şəffaflığının təmin edilməsi ilə bağlı ortaya çıxan suallar cavablandırılıb.

---

***Bakı şəhəri Lokal Gəlirlər Departamentində sahibkarlarla görüşdə vergilər nazirinin müşaviri Manaf Bayramov, Beynəlxalq münasibətlər və maliyyə institutlarında vergi monitorinqi departamentinin baş direktoru Zaur Fətizadə iştirak ediblər.***

Bu tədbirin də başlıca mövzusu vergi orqanları ilə vergi ödəyiciləri arasında münasibətlərin şəffaflıq və qarşılıqlı etimad üzərində qurulması olub. Görüşdə çıxış edən Manaf Bayramov bildirib ki, vergiləri tam və vaxtında ödəyən intizamlı vergi ödəyiciləri vergi orqanları tərəfindən həmişə dəstək görəcək: «Əgər vergi ödəyicisi saxta bəyannamələr təqdim edirsə, vergiləri vaxtında ödəmirsə, vergidən yayınma hallarına yol verirsə, buna uyğun olaraq qanunvericilikdə nəzərdə tutulmuş qaydada sərt tədbirlərlə üzləşəcək».

M.Bayramov bu ilin hərtərəfli islahatlar üçün hazırlıq ili olduğunu qeyd edib: «Vergi orqanları tərəfindən qanunvericiliyə müvafiq dəyişikliklər hazırlanır. Şəffaf uçot aparmaq üçün maneələrin aradan qaldırılması barədə vergi ödəyicilərinin təkliflərini gözləyirik».

Tədbirdə əməliyyatların rəsmiləşdirilməsi, kassa çeklərinin verilməsində olan nöqsanlar, bəyannamələrin kameral yoxlamaları, ictimai iaşə sahəsində olan problemlərin həlli ilə bağlı vergi ödəyicilərinin suallarına cavab verilib.

---

Sahibkarlarla görüşlər respublikamızın 12 şəhərində - Sumqayıt, Gəncə, Yevlax, Şirvan, Lənkəran, Şəmkir, Quba, Göyçay, Qəbələ, Zaqatala, Şamaxı və İmişlidə də keçirilib. Bakı şəhəri və regionlarda fəaliyyət göstərən sahibkarlarla keçirilmiş görüşlərdə iqtisadiyyatın müxtəlif sahələrini təmsil edən 4000-ə yaxın vergi ödəyicisi iştirak edib.

Bu tədbirlər zamanı Vergilər Nazirliyinin nümayəndələri tərəfindən fevralın 13-də keçirilmiş «Vergilər. Şəffaflıq. İnkişaf» mövzusunda konfrans və martın 1-də vergi orqanı əməkdaşları ilə görüş zamanı vergi ödəyicilərinə ünvanlanmış müasir vergi siyasətinə uyğun tələb və gözləntilər, vergilərin könüllü ödənilmə səviyyəsinin yüksəldilməsi, vergi uçotunun təkmilləşdirilməsi, vergi ödəyiciləri ilə vergi orqanı arasında münasibətlərin qarşılıqlı hörmət və etimad əsasında qurulmasının vacibliyi, vergi auditinin gəlir və xərc sənədlərinə uyğun aparılması, vergi qanunvericiliyi və vergi inzibatçılığı və digər məsələlər barədə vergi ödəyiciləri ilə işgüzar şəraitdə səmimi müzakirələr aparılıb.

*Hazırladılar:*
**Elbrus CƏFƏRLİ,**
**Fəxriyyə İKRAMQIZI**

## ELAN

Ötən ilin sentyabr ayından dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün «Asan İmza» elektron rəqəmsal imzanın yeni tarifinin tətbiqinə başlanılmışdır.

Dövlət müəssisələrinin büdcədən maliyyələşdirilməsi proseduru və alışların əvvəlcədən planlaşdırılması nəzərə alınaraq, dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün «Asan İmza» elektron rəqəmsal imzanın əldə edilməsi və istismarı prosesini asanlaşdırmaq məqsədilə yeni tarif müəyyən olunmuşdur. Tarif «Asan İmza» dövlət və ya bələdiyyə sertifikatının istifadəsi müddətində (3 il ərzində) başqa əlavə xərclər olmadan 58 manat həcmində birdəfəlik ödənişi nəzərdə tutur.

«ASAN İmza» ilə əlaqədar əlavə sualınız yaranarsa, **Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə**, ww.taxes.gov.az və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

VERGİLƏR NAZİRLİYİ



## Vergi ödəyicisinin sualı var...

Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru vergi ödəyicilərinin suallarına cavab verir

## Elektron qaimə-faktura

***Nəşriyyat fəaliyyəti ilə məşğul olan müəssisə tərəfindən sifarişçi müəssisəyə kitab nəşri ilə bağlı xidmətlər göstərildiyi halda, sifarişçi müəssisəyə elektron qaimə-faktura təqdim edilməlidirmi?***

Vergi Məcəlləsinin (VM) 16.1.11-6-cı maddəsinə əsasən, sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim edilməsi ilə bağlı bu Məcəllədə nəzərdə tutulmuş qaydada qaimə-faktura və ya elektron qaimə-faktura vermək vergi ödəyicisinin vəzifələrinə aid edilmişdir.

VM ilə müəyyən olunan hallarda fərdi sahibkarlara və hüquqi şəxslərə malları təqdim edən, işləri görən və xidmətləri göstərən şəxs onlara elektron qaimə-faktura verir. Vergi ödəyicisi kimi vergi orqanlarında uçota alınmayan şəxslərin elektron qaimə-faktura vermək hüququ yoxdur (VM, maddə 71-1).

Bunlarla yanaşı, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14 mart 2017-ci il tarixli 89 nömrəli Qərarı ilə təsdiq edilmiş «Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları»nın 1.2-ci bəndinə əsasən, elektron qaimə-faktura - bu Qaydalara uyğun olaraq tərtib edilməklə, elektron formada hazırlanan və malları təqdim edən, işləri görən və xidmətləri göstərən şəxs tərəfindən fərdi sahibkarlara və hüquqi şəxslərə təqdim olunan ilkin uçot sənədidir.

**Qeyd olunanlara əsasən:**

Nəşriyyat fəaliyyəti ilə məşğul olan müəssisə tərəfindən göstərilən kitab nəşri xidmətlərinə görə sifarişçi müəssisəyə elektron qaimə-faktura təqdim edilməlidir.

## ƏRAZİ VERGİ ORQANLARINDA

- Martın 6-da 5 saylı Ərazi Vergilər İdarəsi (ƏVİ) tərəfindən Şirvan şəhərində vergi ödəyiciləri ilə keçirilmiş görüş zamanı vergi sistemində şəffaflığın təmin edilməsi, vergi ödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı etimadın yüksəldilməsi, vergi orqanlarında idarəetmə prinsiplərinin yenidən təşkili və digər məsələlər müzakirə edilmişdir.

- 10 saylı ƏVİ tərəfindən martın 6-da Qəbələ, martın 9-da isə İsmayıllı rayonunda keçirilmiş görüşlərdə vergi ödəyicilərinin fikirləri dinlənilmiş, onların rastlaşdıqları başlıca problemlərin həlli barədə söhbət aparılmışdır.

- Martın 7-də 3 saylı ƏVİ tərəfindən Xaçmaz rayonunda fəaliyyət göstərən vergi ödəyiciləri ilə görüşdə «Elektron qaimə-fakturanın tətbiqi və vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması qaydaları» barədə iştirakçılara ətraflı məlumat verilmişdir. Martın 9-da Şabran şəhərində «Vergi dostları» şəbəkəsinin və rayonda fəaliyyət göstərən bələdiyyələrin nümayəndələri ilə keçirilən görüşdə isə ölkənin vergi sistemində aparılan islahatların əsas istiqamətləri barədə məlumatlandırma işləri aparılmışdır.

# Bank sistemində sağlamlaşdırma tədbirləri davam etdirilir

Görüləcək tədbirlər çərçivəsində likvidlik və kapitallaşma problemlərinin həll edilməsi, hüquqi və tənzimləmə çərçivəsinin təkmilləşdirilməsi nəzərdə tutulur. Bu prosesdə bankların maliyyə vəziyyəti, likvidlik problemləri, bazardakı potensialı və digər amillər nəzərə alınacaq. Bu məqsədlə bankın öhdəlikləri könüllü restrukturizasiya olunacaq. Ödəmə qabiliyyətini itirmiş və ya itirmək təhlükəsi olan bankın təxirə salınmadan və mümkün qədər az məsrəflə maliyyə bazarından kənarlaşdırılması məqsədilə maliyyə bazarlarına nəzarət orqanı tərəfindən investorlara satılması, digər banka qoşulması, aktivlərinin və öhdəliklərinin köçürülməsi, «körpü bank»ın yaradılması həyata keçiriləcək.

İndiyədək sağlamlaşdırma tədbirləri çərçivəsində qanunvericilik sahəsində mühüm addımlar atılıb. «Ödəmə qabiliyyətini itirmiş bankların rezolyusiyası və sağlamlaşdırma tədbirləri çərçivəsində qeyri-işlək (toksik) aktivlərin təqdim edilməsi qaydası» təsdiq olunub, «Banklar haqqında» Qanuna dəyişikliklər edilib, bankların səhmdarları 2017-ci ildə 900 milyon manat məbləğində kapital inyeksiyası təmin edib. «Azərbaycan Beynəlxalq Bankı» ASC-nin restrukturizasiyası prosesi tamamlanma mərhələsinə çatdırılıb. Bankın 2,4 mlrd. dollarlıq xarici borc öhdəliklərinin restrukturizasiyası prosesləri tamamlanıb, habelə 2017-ci ildə 2,7 milyard dollar həcmində toksik aktiv «Aqrarkredit» QSC bank olmayan kredit təşkilatına ötürülüb.

Strateji plana əsasən, sağlam banklara, tam funksional maliyyə bazarlarına, Bazel III standartlarına uyğunlaşdırılmış risk idarəetməsinə, daha səmərəli və rəqəmsallaşdırılmış proseslərə və yüksək keyfiyyətli işçi heyətinə malik maliyyə sistemini formalaşdırmaq əsas hədəflərdəndir. Hökumət qarşıya maliyyə xidmətləri sektorunun güclü və diversifikasiya edilmiş maliyyə institutlarından təşkil olunması, davamlı artım və mənfəətlilik nümayiş etdirən güclü bank sistemi qurmaq vəzifəsi qoyub. Bank sektorunda konsolidasiya prosesinin sürətlənməsi, bankların maliyyə nəticələri arasında fərqlərin azalması nəticəsində banklar böyüyərək daha geniş xidmət portfelinə malik olacaq. Maliyyə Bazarlarına Nəzarət Palatası hesab edir ki, ölkədə güclü və sağlam maliyyə institutlarının formalaşması kredit məhsullarına alternativ çıxış imkanları yaradacaq və bu sektorda rəqabət gücləndiriləcək.

Sağlamlaşdırma tədbirləri bəzi bankların ləğvi ilə də nəticələ bilər. Palata tərəfindən bank sektorunda risklərin idarə edilməsinin diaqnostikasının aparılması tədbirləri də nəzərdə tutulub. Dünyada tətbiq olunan bank sisteminin qiymətləndirilməsi meyarlarına uyğun olaraq, yeni standartlardan istifadə ediləcək.

# İntizamlı vergi ödəyiciləri vergi orqanlarının etibarlı tərəfdaşıdır

**Vergi sistemində həyata keçirilməsinə başlanılmış şəffaflığın təmin edilməsi və vergi ödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı etimadın yüksəldilməsi prinsipləri vergi ödəyicilərinin də öz öhdəliklərinə ciddi yanaşmasını tələb edir. Şəffaflıq yalnız vergi orqanlarının fəaliyyətini deyil, eyni zamanda vergi ödəyicilərinin də öz öhdəliklərinə düzgün yanaşmasını əhatə etməlidir. Vergilər Nazirliyi vergilərini tam həcmdə və vaxtında ödəyən hər bir intizamlı ödəyicinin vergi orqanlarının etibarlı tərəfdaşı olacağını və onların daim dəstəklənəcəyini bəyan edib.**

Vergilər Nazirliyi tərəfindən könüllü əməletmə səviyyəsinin artırılması yönündə atılan mühüm addımlardan biri də vergi orqanları ilə vergi ödəyiciləri arasında münasibətlərin partnyorluq müstəvisinə keçirilməsidir.

Vergi orqanlarında «Şəffaf vergi partnyorluğu» strukturlarının yaradılması tərəfdaşlıq münasibətlərinin dərinləşdirilməsi və keyfiyyətcə yeni müstəviyə qaldırılması istiqamətində yeni bir yanaşmadır. Bu, ilk növbədə, intizamlı vergi ödəyiciləri ilə işin aparılmasını nəzərdə tutan bir sistemdir. Vergi öhdəliklərini vaxtında yerinə yetirən ödəyicilərə xüsusi münasibətin göstərilməsi beynəlxalq praktikada geniş yayılmış təcrübədir. Həmin təcrübənin mahiyyəti bundan ibarətdir ki, intizamlı vergi ödəyicilərinə xidmət göstərilərkən onlar vergi öhdəliyini yerinə yetirməyən, problemli ödəyicidən, sözün müsbət mənasında, fərqləndirilir.

Vergi hesabatına bilərəkdən saxta məlumatları daxil edənlər və vergidən yayınmağa cəhd göstərənlər isə qanun qarşısında cavab verəcək, onlarla sərt, lakin qanunun müəyyən etdiyi çərçivədə davranılacaqdır. Kiçik və ya böyüklüyündən asılı olmayaraq, hər bir vergi ödəyicisi öz vergi öhdəliyinə əməl etməli, ikili mühasibatın aparılması, vergiyə cəlb olunan dövriyyələrin gizlədilməsi, vergidən yayınma halları aradan qaldırılmalıdır.

Sahibkarların öz vergi öhdəliklərini rahat şəkildə yerinə yetirməsi üçün mövcud sistem, vergi ödəyicilərinə göstərilən xidmətlər ödəyicilərin gözləntilərinə və tələblərinə uyğun şəkildə təkmilləşdirilməkdədir.

Vergi sistemində kadrların yenidən komplektləşdirilməsi, barəsində şikayətlər daxil olan vergi məmurları haqqında ölçü götürülməsi, peşəkarların irəli çəkilməsi ilə bağlı tədbirlər davam etdirilir. Vergilər Nazirliyi ödəyicilərə keyfiyyətli xidmətlər, qarşılıqlı etimad təklif edir, onları eşitməyə, qanuni tələblərinin həllinə kömək göstərməyə hazırdır. Vergi ödəyicilərindən isə intizamlı olmaq və vergi qanunvericiliyinin tələblərinə tam əməl etmək tələb olunur.

*Onu da qeyd etmək lazımdır ki, Vergilər Nazirliyi yeni islahatlar paketinin hazırlanmasına başlayıb. Martın 31-dək bütün şirkətlərin, biznes nümayəndəliklərinin və assosiasiyaların üzvlərinə onların fəaliyyətini çətinləşdirən, işlərində qanunvericilik səbəbindən meydana çıxan məqamların həlli ilə bağlı təkliflərini nazirlikdə yaradılmış katibliyə təqdim etmələri tövsiyə olunub. Vergilər Nazirliyi bütün təklifləri dəyərləndirərək qanunvericilikdə müvafiq dəyişikliklərin aparılması ilə bağlı müvafiq addımlar atacaq.*

**Rəşad SADIQOV**

# Gənc sahibkarlara güzəştli kreditlər veriləcək

**Prezident İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikasında gənclər siyasəti sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" fərmanda gənclərin məşğulluğunun təmin edilməsi, yeni yaradılmış müəssisələrdə potensial kadr kimi irəli çəkilməsi, onların sahibkarlıq fəaliyyətinə həvəsləndirilməsi və digər məsələlər öz əksini tapıb.**

Bu fərmandan irəli gələn vəzifələrin yerinə yetirilməsi üçün İqtisadiyyat Nazirliyi iqtisadi layihələrdə xüsusi fəallıq nümayiş etdirən gənc sahibkarlar üçün stimullaşdırıcı tədbirlər görməyi planlaşdırır. Güzəştli kreditlərin həcminin artırılmasında, dövlət dəstəyi tədbirlərinin gücləndirilməsində, regionlarda yeni biznes layihələrinin həyata keçirilməsində gənclərə üstünlük verilməsi nəzərdə tutulur. Gənc sahibkarlar indiyədək Sahibkarlığa Kömək Milli Fondunun (SKMF) xətti ilə 400 milyon manatdan artıq güzəştli kredit əldə ediblər. Ayrılan vəsaitlər hesabına gənclərin həyata keçirdiyi investisiya layihələri sayəsində 15 mindən çox yeni iş yeri açılıb. Gənclər arasında sahibkarlığın inkişaf etdirilməsi və sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyənlərə dəstək verilməsi ilə bağlı təkliflər hazırlanıb, güzəştli maliyyə mexanizmindən səmərəli istifadə, gənclərin yeni layihələrə cəlb edilməsi kimi təkliflərə baxılıb və həmin təkliflərin təkmilləşdirilməsi üçün aidiyyəti qurumlarla müvafiq iş aparılmaqdadır.

Həyata keçirilən tədbirlər bölgələri də əhatə edir. Regionlarda gənclərin məşğulluğunun inkişaf etdirilməsi və əmək ehtiyatlarının keyfiyyətcə yaxşılaşdırılması istiqamətində iqtisadi maarifləndirmə, məsləhət xidmətinin genişləndirilməsi, məşğulluq və sahibkarlıq fəaliyyəti sahəsində qabaqcıl təcrübənin öyrənilməsi, sərhədyanı bölgələrdə biznesə başlamaq istəyən gənclərə dəstək göstərilməsi və işsizliyin aradan qaldırılması məqsədilə bir sıra tədbirlər həyata keçirilib. İqtisadiyyat nazirinin müavini Sahib Məmmədovun sözlərinə görə, «Sahibkarlığın inkişafına dövlət dəstəyi» layihəsi çərçivəsində iqtisadi rayonlarda keçirilən tədbirlərdə gənc sahibkarların və yeni sahibkarlıq fəaliyyətinə başlamaq istəyən gənclərin təqdim etdikləri layihələrin maliyyələşdirilməsi müzakirə olunub, SKMF tərəfindən bir sıra layihələr maliyyələşdirilib.

S.Məmmədov qeyd edib ki, hökumət sahibkarlığa iddialı şəxslərə innovativ düşüncə aşılamağı və biznes ideyasını reallaşdırmağı prioritet hesab edir. Hazırda regionlarda yaradılan kiçik və orta sahibkarlıq müəssisələrində, biznes inkubatorlarında, sənaye texnoparklarında gənc sahibkarlara potensial qüvvə kimi dəstək verilir. Qarşıdakı dövrdə yeni ideya və layihələrlə müraciət edən gənclərə biznesin planlaşdırılması və idarə edilməsi, investisiya layihələrinin və biznes planlarının hazırlanması, marketinq araşdırmalarının aparılması, potensial biznes tərəfdaşları ilə əlaqələrin qurulması və digər sahələr üzrə kömək göstəriləcək.

Regionlarda yeni yaradılan kənd təsərrüfatı və aqrar-sənaye müəssisələri ilə bağlı layihələrin həyata keçirilməsində də gənc sahibkarlara dəstək verilir. Gənclərin məşğulluğunun təmin edilməsinə dair Dövlət Proqramına uyğun olaraq, ölkənin işğaldan azad edilmiş ərazilərə köçən fermer təsərrüfatı və digər sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyən gənclər tərəfindən özəl toxumçuluq və heyvandarlıq təsərrüfatlarının yaradılmasına dəstək göstəriləcək, «Aqrolizinq» ASC-nin ölkəmizə idxal etdiyi kənd təsərrüfatı texnikasının bir hissəsi lizinq yolu ilə gənc sahibkarlara veriləcək.

> Regionlarda yaradılan kiçik və orta sahibkarlıq müəssisələrində, biznes inkubatorlarında, sənaye texnoparklarında gənc sahibkarlara potensial qüvvə kimi dəstək verilir

Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası da gənc sahibkarların fəaliyyətinin stimullaşdırılması üçün müxtəlif tədbirlər həyata keçirməyi planlaşdırır. Təşkilatın sədr müavini Fuad Hüseynovun sözlərinə görə, gənclərin sahibkarlıq fəaliyyətinin dəstəklənməsi və məşğulluğunun təmin edilməsi, iqtisadi fəallığının artırılması və onların sahibkarlıq fəaliyyətinə həvəsləndirilməsi müasir dövrün çağırışlarıdır. Konfederasiya gənclər arasında bu sahə üzrə intellektual müsabiqələr keçirməyi məqsədəuyğun hesab edir.

Gənc sahibkarlara dövlət dəstəyi tədbirlərini davam etdirən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi isə «özünədəstək» mexanizmi çərçivəsində gənc ailələrdə məşğulluqla bağlı problemlərin aradan qaldırılması məqsədilə müxtəlif addımlar atır. Hazırda iki istiqamətdə: gənclərə şəxsi yardımçı təsərrüfatın inkişafında dəstək, eləcə də onların əmtəə və xidmətlərin istehsalı üzrə əmək fəaliyyətinə cəlb edilməsi istiqamətlərində iş aparmaq planlaşdırılır. «Özünədəstək» proqramı ünvanlı sosial yardım proqramının mövcud büdcəsi tərkibində maliyyələşdiriləcək. Proqramda iştirak edəcək ailə ünvanlı sosial yardım almayacaq və ona verilən vəsait birbaşa sahibkarlığın inkişafına yönəldiləcək. Layihə çərçivəsində gənc sahibkarlar tərəfindən istehsal olunan məhsulların sərgisinin və əmək yarmarkalarının təşkili də nəzərdə tutulur.

**Elbrus CƏFƏRLİ**

# Torpaqların istifadəsinə nəzarət gücləndirilir

Ölkədə torpaqların dövlət idarəetməsinin təkmilləşdirilməsi, torpaq inzibatçılığında yeni yanaşmaların, intensiv metodların tətbiqi və s. istiqamətində mühüm tədbirlər görülür. Bu məqsədlə torpaq istifadəçiliyində dünya təcrübəsinə əsaslanan mütərəqqi idarəetmə üsulları və yeni texnologiyalar tətbiq edilir, kənd təsərrüfatı təyinatlı torpaqlar yenidən əkin dövriyyəsinə cəlb olunur, torpaqların rentabelliyi və faydalılıq prinsipi təmin edilir.

Əmlak Məsələləri üzrə Dövlət Komitəsindən (ƏMDK) bildirilib ki, boş və istifadəsiz qalan torpaqların yenidən əkin dövriyyəsinə qaytarılması istiqamətində təhlillər aparılır, bu sahədə yüksək nailiyyətlərin əldə edilməsi ilə bağlı işlər görülür. 50 rayon üzrə 1500-ə yaxın hüquqi və fiziki şəxs tərəfindən səmərəsiz istifadə olunan 255 min hektara yaxın kənd təsərrüfatı təyinatlı torpaqlar geri qaytarılaraq təkrar istifadəyə verilib. Bununla da torpaq sahələrinin daha səmərəli şəkildə istifadəçiliyi üçün zəmin yaradılıb. 2017-ci il ərzində ümumilikdə 101 min hektar torpaq sahəsinin təyinatı dəyişdirilməsi də bu sahədə aparılan genişmiqyaslı işlərin nəticəsidir. Ötən il kənd təsərrüfatı sahəsində əkin dövriyyəsinin artırılması məqsədilə 177 min hektara yaxın torpaq sahəsi də hüquqi və fiziki şəxslərə icarəyə verilib. Torpaqların əkin dövriyyəsinə cəlb edilməsi, həmçinin aqrar sahənin inkişafı ilə bağlı torpaqların təyinatının dəyişdirilməsi istiqamətində də tədbirlər görülür. 152 min hektar torpağın təyinatı kənd təsərrüfatı məqsədilə dəyişdirilib. Həmin ərazi 28 aqropark və 13 iri təsərrüfatın yaradılmasına imkan verib. Təyinatı dəyişdirilən torpaqlarda aqroparkların yaradılması ərzaq təhlükəsizliyi ilə bağlı olan əsas məsələlərin həlli baxımından mühüm tədbirlərdəndir. Təyinatı dəyişdirilən torpaq sahələrinin gəlirlilik potensialı artırılır, həmin sahələrdə əkin prosesinin aparılması bol məhsul əldə edilməsinə şərait yaradır.

Torpaqlardan təyinatına uyğun və səmərəli istifadəsi, əsassız zəbt olunması, qanunvericiliyin tələblərindən irəli gələrək mühafizə zolaqlarının amilinə riayət edilməsi istiqamətində nəzarət tədbirləri gücləndirilir. Müvafiq tələblərə cavab verməyən tikinti işlərinin qarşısının alınması, torpaqların münbit qatının daşınmaması ilə bağlı monitorinqlər keçirilir, məqsədyönlü təhlillər aparılır. Bu istiqamətdə həyata keçirilən monitorinqlər zamanı məlum olur ki, bəzi hallarda torpaqlar kənd təsərrüfatı təyinatlı torpaqlar birbaşa məqsədləri ilə deyil, istehsalat, sənaye məqsədləri üçün istifadə edilir. Belə torpaqlarda süni balıq gölləri, daş və qum-çınqıl karxanaları və s. obyektlər yaradılır.

> Təyinatı dəyişdirilən torpaq sahələrinin gəlirlilik potensialı artırılır, həmin sahələrdə əkin prosesinin aparılması bol məhsul əldə edilməsinə şərait yaradır.

Bəzi hallarda torpaqların üst münbit qatının müxtəlif ərazilərə daşınması hallarına da rast gəlinir ki, bu da torpaqların eroziyaya uğramasına səbəb olur. Nəticədə torpaq sahələrinin məqsədli istifadəsinin qarşısı alınır, torpağın iqtisadi gəlirliliyi və səmərəsi azalır, bu isə həmin torpaqların kənd təsərrüfatı dövriyyəsindən çıxmasına gətirib çıxarır. Ümumilikdə, aparılan monitorinqlər nəticəsində İnzibati Xətalar Məcəlləsinin tələblərinə əsasən, 2500-ə yaxın hal üzrə inzibati protokol tərtib edilib, 8 min hektara yaxın kənd təsərrüfatı təyinatlı torpaq sahələrində 26 minə yaxın kateqoriyasına uyğun olmayan tikililərin inşa edildiyi aşkar olunub.

ƏMDK-dan bildirilib ki, torpaqların dövlət idarəedilməsində müasir yanaşmaların tətbiqi daha da genişləndiriləcək, effektiv üsulların tətbiqi ilə torpaq münasibətlərinin tənzimlənməsi reallaşdırılacaq, o cümlədən torpaqların mülkiyyətçilər tərəfindən müntəzəm istifadəsini stimullaşdırmaqla bağlı keçirilən maarifləndirici tədbirlər davam etdiriləcəkdir.

**AYTƏN**

# İnsan həyatı hər şeydən öndədir

## Əmək qanunvericiliyinə əməl etmək bədbəxtliklə nəticələnən istehsalat hadisələrinin sayının azalmasına müsbət təsir göstərir

Nazirlər Kabinetininin ötən il istehsalatda baş vermiş bədbəxt hadisələr haqqında məlumatında bildirilir ki, il ərzində 151 bədbəxt hadisənin təhqiqatı aparılıb. Onlardan 11-i qrup halında baş verib. 61 nəfər həyatını itirib, 121 nəfər isə müxtəlif dərəcəli bədən xəsarətləri alıb. İqtisadi fəaliyyət sahələri üzrə istehsalatda bədbəxt hadisələr əsasən tikintidə (24%), emal sənayesində (17,5%), nəqliyyatda (12,5%), mədənçıxarmada (14%), energetikada (5%) və digər sahələrdə (27%) baş verib. Tikinti sektorunda 36 hadisə baş verib (qrup halında 1 hadisə qeydə alınıb) və bu hadisələr zamanı ölənlərin sayı 17 nəfər, xəsarət alanların sayı isə 24 nəfər olub.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən bildirilib ki, əmək müqaviləsi üzrə işçinin əsas hüquqlarından biri də həyatının, sağlamlığının və əməyinin mühafizəsini təmin edən əmək şəraitində çalışmaqdır. Bir sıra hallarda əməyin mühafizəsi ilə bağlı qanunvericilikdən irəli gələn tələblərə əməl olunmasına, əməyin mühafizəsi üzrə xidmətin yaradılmasına biganə münasibət işçilərin həyat və sağlamlığının itirilməsi ilə nəticələnən istehsalat qəzalarının baş verməsinə səbəb olur. Buna görə də hər bir işəgötürən Əmək Məcəlləsində əksini tapan əməyin mühafizəsi norma, qayda və prinsiplərinə əməl etməyi gündəlik fəaliyyətinin əsas tərkib hissəsi kimi qəbul etməlidir. İşçilər üçün sağlam və təhlükəsiz əmək şəraitinin mövcud olması yalnız işçinin həyat və sağlamlığının qorunması baxımından deyil, əməyin səmərəliliyinin artırılması, keyfiyyətli məhsul istehsalı üçün də xüsusi önəm kəsb edir.

Əməyin mühafizəsi ilə bağlı işəgötürənlər tərəfindən görülməli olan tədbirlərə binaların, qurğuların, texnoloji proseslərin və avadanlığın təhlükəsizliyinə riayət edilməsi, iş yerlərinin sağlam sanitariya-gigiyena şəraitinin və əməyin mühafizəsinin qüvvədə olan normativlərə uyğunlaşdırılması və s. daxildir. İşəgötürənlər işçilərə müəyyən edilmiş müddətlərdə və tələb olunan çeşidlərdə pulsuz xüsusi geyim və digər fərdi mühafizə vasitələrinin verməli, işçilərə əməyin mühafizəsi normaları və qaydaları barədə təlim verməlidirlər.

Bəs istehsalatda baş verən bədbəxt hadisələr zamanı işçilərə hansı halda kompensasiya ödənilməlidir? «İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında» Qanuna uyğun olaraq, sığortalanmış işçilərə dəymiş zərərin əvəzi sığorta şirkətləri tərəfindən ödənilməlidir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Dövlət Əmək Müfəttişliyi Xidmətinin (DƏMX) Əməyin mühafizəsi məsələlərinə nəzarət və istehsalatda baş vermiş bədbəxt hadisələrin tədqiqi sektorunun müdiri İlqar Məmmədov mövzunu şərh edərək demişdir: «Hamısında olmasa da, əksər müəssisələrdə buna əməl edilir və dəymiş zərərin əvəzi sığorta şirkətləri tərəfindən ödənilir. Əməl olunmadığı və müəssisə təqsirli hesab olunduğu halda isə müəssisə tərəfindən həmin dəymiş zərər, yəni kompensasiya Nazirlər Kabinetinin müvafiq qərarı ilə ödənilir».

**Bədbəxt hadisə nəticəsində xəsarət almış işçilərə dəyən zərərin əvəzi onun əmək qabiliyyətini itirməsi faizinə görə ödənilir**

Xidmət rəsmisi əlavə edib ki, bədbəxt hadisə nəticəsində xəsarət almış işçilərə dəyən zərərin əvəzi onun əmək qabiliyyətini itirməsi faizinə görə ödənilir: «Əgər işçinin maaşı 500 manatdırsa, əmək qabiliyyətinin 60-70 faizini itiribsə, o, 500 manatın 70 faizi miqdarında hər ay məvacib alacaq. Ölüm hadisəsində isə ödəniş 100 faiz edilir. Sığorta şirkəti tərəfindən də müəyyən düstur mövcuddur. Bu düstura görə, işçinin ailə tərkibi də, məvacibi də hesablanır. Odur ki, ödənişin məbləği fərqli olur. Bu, işəgötürənlə sığorta şirkəti arasında bağlanmış müqavilə əsasında müəyyənləşdirilir».

İ.Məmmədovun sözlərinə görə, işçi əmək qabiliyyətini itirdiyi və əlillik dərəcəsi aldığı təqdirdə ödəniş edilir: «İşçi bir neçə aya sağalacaqsa, öz iş yerində işini davam etdirəcəksə, kompensasiyadan söhbət gedə bilməz. Yalnız xəstəxanada olduğu müddətdə əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müəssisə tərəfindən işçiyə məvacib ödənilir».

Millət vəkili Qənirə Paşayeva istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə-əmək qabiliyyətini itirən vətəndaşların hüquqlarının daha ciddi qorunmasının vacibliyini bildirib. Millət vəkilinin sözlərinə görə, tikinti sektoru da daxil olmaqla, bəzi özəl sahələrdə işçilər əmək müqaviləsi və icbari sığorta olmadan çalışdırılırlar. Buna qarşı sərt mübarizə aparmaq lazımdır, çünki istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə-əmək qabiliyyətini itirməklə vətəndaşlar ağır vəziyyətlə üzləşirlər.

Bədbəxt hadisələr zamanı peşə-əmək qabiliyyətini itirənlərin icbari sığorta haqlarını almalarında bəzi hallarda rast gələnən süründürməçilik hallarının olması və bununla bağlı vətəndaşlardan şikayətlərin və müraciətlərin gəldiyini qeyd edən Qənirə Paşayeva bu cür süründürməçilik hallarına son qoyulmasının vacibliyini qeyd edib. Deputat istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə-əmək qabiliyyətini itirmiş vətəndaşların normal şəkildə sığorta haqlarından yararlana bilmələrinin böyük önəmini vurğulayıb və bu sahədə mexanizmlərin və görülən işlərin keyfiyyətinin daha da artırılmasına ehtiyac olduğunu deyib.

**Rəşad SADIQOV**

# Aqroparklar ölkənin ərzaq təhlükəsizliyinə töhfə verir

**Prezident İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikasında gənclər siyasəti sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" fərmanda gənclərin məşğulluğunun təmin edilməsi, yeni yaradılmış müəssisələrdə potensial kadr kimi irəli çəkilməsi, onların sahibkarlıq fəaliyyətinə həvəsləndirilməsi və digər məsələlər öz əksini tapıb.**

Prezident İlham Əliyevin bir müddət əvvəl ölkədə aqroparkların yaradılması haqqında fərmanına əsasən, ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsində, idxalın yerli məhsullarla əvəz edilməsində, ölkənin ixrac potensialının genişləndirilməsində əhəmiyyətli olacaq 20-dək aqroparkın yaradılması nəzərdə tutulur.

İqtisadçı ekspert Pərviz Heydərovun sözlərinə görə, sənaye istehsalı və kənd təsərrüfatı hökumətin gələcək fəaliyyəti üçün prioritet sahələrdəndir: «Bu istiqamətlərdə hələ bir neçə il öncədən zəruri tədbirlər görülməyə başlanılıb. Ölkədə rəqabətədavamlı sənaye məhsulları istehsalına nail olmaq və onu daha da artırmaq məqsədilə sənaye parklarının yaradılması istiqamətində aparılan işlər yüksək qiymətləndirilməlidir».

Qeyd olunub ki, 27 noyabr 2001-ci il tarixdə təsdiq edilmiş «Kənd təsərrüfatı məhsulları istehsalçılarına müddətli vergi güzəştlərinin verilməsi haqqında» Qanun bu gün də qüvvədədir: «Burada istehsal və tədarükün əsasən kiçik sahibkarlıq fəaliyyəti sayəsində artması və genişlənməsinə nail olmaq tələb edilir ki, ilk növbədə ölkədə xammal bolluğuna nail olunsun. Müvafiq emal müəssisələri də yalnız bunun əsasında təşəkkül tapmalı idi. Bu mənada, aqroparkların yaradılması zəruri idi. Çünki bu, məsələnin kompleks həlli üçün ən gözəl vasitə və mexanizm təşkil edir».

P.Heydərov, ümumiyyətlə, ölkənin ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi və ixrac-idxal potensialının yerli məhsullarla genişləndirilməsində aqroparkların perspektivini yüksək qiymətləndirərək vurğulayıb ki, bu, aqrar sahənin sıçrayışlı inkişafı üçün zəmin yaradacaq: «Regionlarda indiyədək istifadəyə verilmiş emal müəssisələri mühüm faktdır. Lakin bu və ya digər rayonda, misal üçün, meyvə emalı zavodu fəaliyyət göstərirsə və həmin rayonda kənd əhalisinin həyatında meyvə-tərəvəz çürüyüb zay olursa, deməli, burada effektiv yanaşma tələb olunur. Aqroparklar bunun ən gözəl nümunəsi olacaqdır».

İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondunun icraçı direktoru Şirzad Abdullayevin qeyd olunan məsələ ilə bağlı şərhində bildirib ki, respublikanın 28 rayonu üzrə 183 min hektar ərazidə 43 aqroparkın yaradılması prosesi sürətlə aparılır: «Dövlət tərəfindən bu məqsədlə 251 milyon manat, o cümlədən infrastruktur təminatına 149 milyon manat investisiya və 102 milyon manat güzəştli kredit ayrılıb, 11 aqropark üzrə 350 milyon manat dəyərində dövlət investisiya təşviqi sənədi verilib, kompleks aqrolizinq xidmətləri göstərilib».

Ş.Abdullayev vurğulayıb ki, artıq üç aqroparkda birinci mərhələ başa çatdırılıb, 25-də tikinti-quraşdırma və 15-də layihələndirmə işləri aparılır. 2018-ci ildə 15 aqropark istifadəyə veriləcək: «Aqroparklar ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsinə, emal sənayesinin davamlı olaraq yüksək keyfiyyətli və maya dəyəri aşağı olan xammalla təmin edilməsinə, yerli məhsulların rəqabət qabiliyyətinin daha da artmasına səbəb olacaq».

**FƏXRİYYƏ**

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun xətti ilə indiyədək **21 min 780** ipoteka krediti verilib. Fondun vəsaitləri hesabına verilmiş ipoteka kreditləri üzrə məbləğ **981 milyon 140 min 550** manatdan çoxdur.
- Cari ilin yanvar ayında Azərbaycana **185 min 913,** fevral ayında isə **166 min 161** nəfər xarici ölkə vətəndaşı səfər edib.
- Bu ilin yanvar-fevral aylarında Azərbaycanda ticarət əməliyyatlarının həcmi ümumilikdə **3 milyard 661 milyon 979 min** ABŞ dolları olub.
- Yanvar-fevral ayında ərzində **58 milyon 418,59 min** ABŞ dolları dəyərində **57 273,12 ton** meyvə-tərəvəz ixrac edilib.
- 2018-ci ilin ilk iki ayında ölkədə **10 min 568 ton** kimya sənayesi məhsulları ixrac olunub və həmin məhsulların dəyəri **6 milyon 623 min** ABŞ dolları təşkil edib.
- Azərbaycanda indiyədək ümumi dəyəri **1,3 milyard** manat olan **160-dan çox** müəsir sənayeyönümlü investisiya layihəsinin maliyyələşdirilməsinə dövlət tərəfindən **512 milyon** manat həcmində güzəştli kredit ayrılıb.

## BİR CÜMLƏ - BİR XƏBƏR

Martın 17-də Neft İxrac edən Ölkələr Təşkilatının (OPEC) baş katibi Məhəmməd Barkindo Azərbaycana səfər edəcək.

«Azərbaycan Respublikasının rezident və qeyri-rezidentlərinin xarici valyuta əməliyyatlarının aparılması Qaydaları»nda dəyişikliklər edilib.

Bu il Sabirabad, Masallı və Hacıqabul sənaye məhəllələri tam gücü ilə fəaliyyətə başlayacaq.

Azərbaycan və İranın birgə iştirakı ilə ölkəmizdə reallaşdırılan avtomobil istehsalı zavodunda işlər tamamlanmaq üzrədir,

Bakıda fəaliyyət göstərən Amay Ticarət Mərkəzində Hindistanın PHD Ticarət və Sənaye Palatasının (PHDCCI) eksklüziv Hindistan məhsullarının nümayişi və sərgisi keçirilir.

## İŞƏGÖTÜRƏNLƏRİN NƏZƏRİNƏ!

**Əmək müqaviləsinin rəsmiləşdirilməsi**

İşəgötürən ona məxsus iş yerində haqqı ödənilməklə çalışan fiziki şəxslə ilkin olaraq fərdi qaydada yazılı əmək müqaviləsi (kontrakt) bağlamalı, bundan sonra əmək müqaviləsinin məlumatlarını Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron informasiya sisteminə daxil edərək onun hüquqi qüvvəyə minməsi üçün müvafiq bildiriş əldə etməlidir.

Əmək müqaviləsi bildirişinin elektron informasiya sisteminə daxil edilməsi üçün işəgötürənin və ya onun səlahiyyət verdiyi şəxsin gücləndirilmiş elektron imzası, o cümlədən «ASAN imza»sı olmalıdır. «ASAN imza» SİM kartını mobil operatorların («Azercell», «Bakcell», «Nar Mobile») nümayəndəliklərindən əldə edib, vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət etməklə «ASAN imza» sertifikatı ala bilərsiniz.

**İşəgötürən tərəfindən əmək müqaviləsi hüquqi qüvvəyə minmədən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb olunması qanunvericiliklə müəyyən edilmiş məsuliyyətə səbəb olur:**

| Qanun pozuntuları | Məsuliyyət tədbirləri |
|---|---|
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürənlər tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi yolu ilə onların gəlirlərinin gizlədilməsinə (azaldılmasına) şərait yaradıldığına görə (Vergi Məcəlləsi, maddə 58.10) | hər bir belə işçi üzrə **1.000 manat** məbləğində maliyyə sanksiyası tətbiq edilir. |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxsləri hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə (İnzibati Xətalar Məcəlləsi, maddə 192.1) | fiziki şəxslər **1.000 manatdan 2.000 manatadək** miqdarda, vəzifəli şəxslər **3.000 manatdan 5.000 manatadək** miqdarda, hüquqi şəxslər **20.000 manatdan 25.000 manatadək** miqdarda inzibati cərimə edilir. |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən xeyli sayda (yəni 10 nəfər və ondan çox olan) işçilərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə (Cinayət Məcəlləsi, maddə 162-1.1)<br><br>Eyni əməllər təkrar törədildikdə (Cinayət Məcəlləsi, maddə 162-1.2) | **7.000** manatdan **10.000** manatadək miqdarda cərimə və ya **2 ilədək müddətə islah işləri** və ya **2 ilədək müddətə azadlığın məhdudlaşdırılması** və ya **2 ilədək müddətə azadlıqdan məhrumetmə** ilə cəzalandırılır.<br><br>**3 ilədək müddətə azadlığın məhdudlaşdırılması** və ya **3 ildən 7 ilədək müddətə azadlıqdan məhrumetmə** ilə cəzalandırılır. |

Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

**Əlavə məlumatı www.taxes.gov.az və www.e-gov.az saytlarından, vergi ödəyicilərinə xidmət mərkəzlərindən və «195-1»Çağrı Mərkəzindən əldə edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ!

**Əmək müqaviləsinin rəsmiləşdirilməsi**

İşə qəbul olunarkən işəgötürənlərdən əmək müqaviləsinin bağlanmasını tələb edin. Əmək müqaviləsi ilk növbədə sosial maraqlarınızın təmin olunmasına xidmət edir və rəsmiləşdirilməmiş əmək fəaliyyətinə razılaşmaqla Siz gələcəkdə dövlətin sosial təminatından və bir sıra üstünlüklərdən məhrum olursunuz.

| İşçinin hüquqları və üstünlükləri | Əmək müqaviləsi ilə fəaliyyət göstərdikdə | Əmək müqaviləsiz fəaliyyət göstərdikdə |
|---|---|---|
| 8 saatlıq iş hüququ | ✓ | ✗ |
| Əmək məzuniyyətindən istifadə hüququ | ✓ | ✗ |
| Peşə-əmək qabiliyyətinin itirilməsi hallarında icbari sığorta hüququ | ✓ | ✗ |
| Xəstəlik və işdənçıxma müavinətinin tam həcmdə alınması hüququ | ✓ | ✗ |
| Gələcəkdə layiqli əmək pensiyasının alınması imkanı | ✓ | ✗ |
| İpoteka və digər kreditləri almaq imkanı | ✓ | ✗ |
| Məhkəmədə hüquqların müdafiəsi | ✓ | ✗ |

İşəgötürənlə əmək müqaviləsi bağlamaqla və rəsmi əməkhaqqı ödəməyi tələb etməklə Siz gələcəyinizi indidən düşünmüş olursuz. Unutmayın ki, Sizə ödənilən rəsmi əmək haqları - sabah üçün sabit sosial təminatınızın təməlidir!

**Bununla bağlı hüquqlarınız pozularsa, vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya «195-1» Çağrı Mərkəzinə müraciət edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# «Audit. Normativ sənədlər» toplusunun IX cildi çapdan çıxıb



Toplunun bu cildinə 2015-ci il iyulun 1-dən 2017-ci il iyulun 1-dək olan dövrdə və daha əvvəllər qəbul edilmiş, yaxud dəyişiklik və əlavələr olunmuş qanunvericilik aktları və normativ hüquqi sənədlər daxil edilmişdir. Topluya Azərbaycan Respublikasının 15 qanun və ya mövcud qanunlara dəyişikliklər, Azərbaycan Respublikası Prezidentinin 20 Fərmanı və 25 Sərəncamı, Nazirlər Kabinetinin 11 qərarı daxil edilmişdir. Nəşrdə yer alan digər sənədlər isə Auditorlar Palatası tərəfindən hazırlanmış «Əlaqəli auditor xidmətlərinin göstərilməsinə dair metodik göstəriş», «Turizm müəssisələrində audit aparılmasına dair proqram», «Auditorların və auditor təşkilatlarının qeydiyyatına və akkreditasiyasına dair metodik göstəriş», «Azərbaycan Respublikasında auditor xidmətinin keyfiyyətinə kənar nəzarət üzrə qaydalar», «Auditin keyfiyyətinə daxili nəzarətin həyata keçirilməsi haqqında Təlimat», «Demping və haqsız rəqabətə qarşı mübarizəyə dair təlimat», «Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin tövsiyə olunan minimum hədləri», «Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə üzrə daxili nəzarət sisteminin qurulmasına və tətbiqinə dair metodik göstəriş», «Audit sahəsində müsabiqə qaydaları və auditor seçimi üzrə metodik göstəriş», «Kənd təsərrüfati kooperativlərində auditin aparilmasina dair təlimat», «Səlahiyyətli dövlət orqanlarinin sifarişi ilə aparilan yoxlamalara dair qayda», «Cinayət yolu əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə üzrə təlim strategiyası və tədris Proqramı», «Auditorların «Öz müştərini tanı» və müştəri qəbulu siyasətinin formalaşdırılmasına dair metodik göstəriş», habelə «Maliyyə hesabatlarının auditi zamanı dələduzluqla bağlı auditorun məsuliyyəti», «Maliyyə hesabatlarının auditi zamanı qanun və qaydaların nəzərə alınması», «İdarəetməyə məsul şəxslərlə əlaqə», «Audit sübutu» adlı firmadaxili audit standartları və digər materiallardır.

Toplu auditorlar, təsərrüfat subyektlərinin rəhbərləri və mühasibləri, iqtisadiyyat yönümlü ixtisaslar üzrə təhsil alan tələbə və magistrantlar, habelə müvafiq sahənin tədqiqatçıları üçün nəzərdə tutulmuşdur.

# Ötən il qeyri-neft ixracında 25 faiz artım olub

Martın 6-da «Kapital bazarları vasitəsilə maliyyələşmə, listinq və investisiyalar» mövzusunda konfrans keçirilib. Tədbirdə çıxış edən Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə bildirib ki, Azərbaycanda güclü makroiqtisadi sabitlik təmin olunub, ölkə iqtisadiyyatının keyfiyyətcə dəyişməsini təmin edən dərin struktur islahatları aparılıb, biznes və investisiya mühitinin davamlı olaraq yaxşılaşdırılması, sahibkarlığın inkişafına dövlət dəstəyinin artırılması güclü biznes sinfinin formalaşmasına şərait yaradıb: «Bu gün ümumi daxili məhsulda özəl sektorun payı 80%-dən artıqdır. Yerli və xarici sərmayəçilər üçün işgüzar mühitin təmin edilməsi son 15 ildə Azərbaycan iqtisadiyyatına 230 milyard dollar investisiya qoyuluşuna səbəb olub».

Z.Səmədzadənin sözlərinə görə, sahibkarların maliyyə xidmətlərinə çıxışlarının asanlaşdırılmasına ehtiyac var, bunun üçün maliyyə və bank qurumları, sığorta şirkətləri sahibkarlarla daha sıx əlaqələr qurmalı, əməkdaşlığı genişləndirməlidirlər. Komitə sədri vurğulayıb ki, Azərbaycan 2050-ci ilə qədər bütün iqtisadi hədəfləri özündə əks etdirən müasir iqtisadi model və yol xəritələri hazırlayıb.

Maliyyə Bazarlarına Nəzarət Palatasının baş icraçı direktoru İbrahim Alışov qeyd edib ki, ötən il qeyri-neft ixracında 25 faiz artım qeydə alınıb. Bu sahədə əsas yeri kənd təsərrüfatı tutub. Banklar tərəfindən iqtisadiyyata 5 milyard manat kredit qoyulub, Azərbaycan manatının sabitliyinə nail olunub, manatın möhkəmlənməsi fonunda banklara inamın bərpa edilməsi üçün yaxşı fürsət yaranıb: «Etimad qazanmaq üçün bank sektoruna nə qədər resurs lazımdırsa, etimadı bərpa etməyə ondan daha çox resurs sərf etmək lazım gəlir. Hazırda maliyyə aktivləri ümumi daxili məhsulun 60%-dən çoxunu əhatə edir ki, bu da maliyyələşmə üçün yaxşı imkanların olduğuna dəlalət edir».

Qeyd olunub ki, ölkədə aparılan iqtisadi siyasət çərçivəsində kapital bazarları inkişaf etdirilib, qiymətli kağızlar bazarı vasitəsilə real sektorun maliyyələşmə təşəbbüsləri artırılıb, sərbəst vəsaitlərin iqtisadiyyatın real sektoruna cəlb olunması üzrə zəruri tədbirlər görülüb.

# Marketinq araşdırması

**Müasir dünyamız biznesdən dəyişən və çevik trendlər, yeni bazarlar uğrunda mübarizələr tələb edir. Əsl iş adamı öz biznesini bu dəyişkən mühitə uyğunlaşdırmağı bacarmalıdır. Mövzunu biznes məsləhətçisi, hüquqşünas Xəyal Məmmədxanlı şərh edir.**

Hər yeni yaranan biznes müəyyən müddətdən sonra xarici bazarlara çıxmağa can atır. Hətta son zamanlarda yaranan bütün start-uplar belə qlobal bazarlar üçün düşünülür. Lakin bazarda mövqe qazanmaq heç də asan deyil. Hər bir bazarın özünün xüsusiyyətləri və tələbləri var. Rəqabət səviyyəsinə görə də onlar bir-birindən kəskin fərqlənir. Ona görə də hər hansı yeni bazara girərkən ciddi bazar araşdırması lazımdır. Bu araşdırmada yerli konsaltinq şirkətlərinin xidmətindən istifadə etmək məqsədəuyğundur. Çünki onlar həmin bazarı daha yaxşı təhlil etmək imkanına malikdirlər.

Xüsusilə də yerli rəqiblərin «swot» analizini, başqa sözlə, güclü və zəif cəhətlərinin təhlilini aparmaq lazımdır. Həmin bazarlardakı yerli şirkətlərlə rəqabət üçün üstün cəhətləriniz olmalıdır. Xarici bazarlara girməyin ən asan yolu yerli şirkətlərlə birgə fəaliyyətdir.

Əksər sahələrdə olduğu kimi, biznesdə də informasiya bütün uğurların başlanğıcıdır. İnformasiya biznesin əsas «silahlarından» hesab edilir. Bazar araşdırması informasiya əsasında aparılır. Bu cür araşdırmalar bazar və onun trendlərini, rəqibi öyrənmək üçün tətbiq olunan üsullardandır. Araşdırma aparmadan, məlumat toplamadan bazara daxil olmaq kor-koranə fəaliyyətlər həyata keçirməyə səbəb olur.

Marketinq araşdırması dedikdə, mövcud bazarın durumu, bazar iştirakçıları və istehlakçılarının tələb və davranışları nəzərdə tutulur. Təcrübədə bu, məlumatların axtarılması, toplanması və analizini özündə ehtiva edir. Düzgün aparılmış araşdırma nəticəsində şirkətlər biznes risklərinin və itkilərinin qarşısını almaq imkanı qazanır. Marketinq analizi bazarın durumu, məhsulun tanıdılması, konkret hədəf qrupuna çatdırılması və ümumilikdə, biznesin inkişafı üçün önəmlidir. Şirkətlər xüsusilə yeni məhsul təqdim etmək, yeni bazarları fəth etmək və ya reklam kampaniyasına başlamaq istədikdə məhz araşdırmaya üz tuturlar. Marketinq araşdırmasının məqsədləri müxtəlif olur: bura bazar həcminin ölçülməsi, cari bazardakı mövqeləşmə, dağıtım kanallarının, istehlakçıların davranışlarının və ya rəqiblərin təhlili daxildir. Bazar araşdırması metodlarına gəlincə, sayı çox olsa da, onları əsasən iki qrupda birləşdirmək olar: kəmiyyət və keyfiyyət. Kəmiyyət - bazar tədqiqatında iştirak edən respondent strukturlaşdırılmış sorğunun qapalı suallarını cavablandırır. Belə tədqiqatların xarakterik xüsusiyyətləri yığılmış məlumatların aydın şəkildə müəyyən edilmiş formatı, alınması mənbələri və emalıdır. Keyfiyyət - bazar tədqiqatı respondentlərin davranışlarının və fikirlərinin müşahidəsi əsasında aparılır. Müşahidə və nəticələr keyfiyyət xarakteri daşıyır və qeyri-standart formada həyata keçirilir.

Marketinq tədqiqatları zamanı əldə olunmuş nəticələr şirkəti gücləndirməyə yardım edir. Siz bu nəticələr əsasında məhsulunuzun, həmçinin rəqiblərinizin zəif və güclü tərəflərini özünüz üçün kəşf edirsiniz. Unutmayın ki, əlində araşdırma nəticələri olmayan biznesin bazara girməsi savaşa əliyalın girmək kimidir: bu halda, bəlkə də qəhrəman kimi yadda qalmaq mümkündür, lakin məğlubiyyət qaçılmazdır...

**Hazırladı:**
**F.İKRAMQIZI**

## 2018-ci ilin mart ayı ərzində vergi orqanına təqdim edilməli bəyannamələr və ödənilməli VERGİLƏR

**2018-ci ilin fevral ayına görə vergi ödəyiciləri tədiyyəçisi olduqları**

- Əlavə dəyər vergisi bəyannaməsi,
- Aksiz bəyannaməsi,
- Yol vergisi bəyannaməsi,
- Mədən vergisi bəyannaməsi,
- Pul vəsaitlərinin nağd çıxarılmasına görə sadələşdirilmiş verginin bəyannaməsi və
- Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsini

**cari ilin mart ayının 27-dən gec olmayaraq** vergi orqanına təqdim etməli və hesablanmış vergiləri həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməlidirlər.

- **Xüsusi notariuslar** 2018-ci ilin fevral ayı üzrə hesabladığı gəlir vergisini **cari ilin mart ayının 27-dən gec olmayaraq** dövlət büdcəsinə ödəməlidirlər (cari ilin 1-ci rübü üzrə bəyannamə aprel ayının 20-dən gec olmayaraq təqdim edilməlidir).
- **Daşınmaz əmlakı** təqdim edin şəxslərdən ödəmə mənbəyində tutulan sadələşdirilmiş verginin bəyannaməsi **cari ilin mart ayının 27-dən gec olmayaraq** vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).
- **Muzdlu işlə əlaqədar** 2018-ci ilin fevral ayı üzrə ödəmə mənbəyində hesablanaraq tutulan vergi **cari ilin mart ayının 27-dən gec olmayaraq** dövlət büdcəsinə ödənilməlidir (ƏDV və sadələşdirilmiş vergi ödəyiciləri tərəfindən bəyannamə illik - növbəti ildə yanvar ayının 31-dən gec olmayaraq, digər vergi ödəyiciləri tərəfindən cari ilin 1-ci rübü üzrə bəyannamə aprel ayının 20-dən gec olmayaraq təqdim edilməlidir).

Təqdim edilməli bəyannamələrin və vergilərin ödənilməsinin son müddəti Novruz bayramı ilə əlaqədar cari ilin mart ayının 20-dən 27-nə keçirilmişdir.

***Bəyannamələr müəyyən edilən müddətdə təqdim edilmədikdə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir (VM, 57), vergilər vaxtında ödənilmədikdə isə bir ildən çox olmamaqla ötmüş hər bir gün üçün 0,1 faizi məbləğində faiz tutulur (VM, 59).***

**Hörmətli vergi ödəyiciləri, siz öz bəyannamələrinizi və hesablanmış vergiləri Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi Portalı (https://www.e-taxes.gov.az) vasitəsilə elektron qaydada da təqdim edə və ödəyə bilərsiniz. Vergi öhdəliklərinizi vaxtında yerinə yetirməyi tövsiyə edirik.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## Elektron qaimə-fakturanın tətbiqi barədə BİLDİRİŞ

**Hörmətli vergi ödəyiciləri!**

**2018-ci il yanvarın 1-dən** etibarən, statusundan asılı olmayaraq, **bütün vergi ödəyiciləri** tərəfindən sahibkarlıq fəaliyyəti məqsədləri üçün malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı elektron qaimə-faktura təqdim olunmalıdır.

Vergi Məcəlləsinə əsasən, sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim olunması ilə bağlı elektron qaimə-faktura vermək vergi ödəyicisinin vəzifələrinə aid edilmişdir.

«Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.03.2017-ci il tarixli 89 nömrəli Qərarı ilə müəyyən edilir.

Elektron qaimə-faktura «Onlayn rejimdə» Vergilər Nazirliyinin İnternet Vergi İdarəsində (www.e-taxes.gov.az) gücləndirilmiş elektron imza (o cümlədən «Asan imza») vasitəsilə elektron qaydada tərtib edilərək və ya «Lazımi proqramlar»dan istifadə olunmaqla «Oflayn rejimdə» tərtib edildikdən və elektron imza (o cümlədən «Asan imza») vasitəsilə imzalandıqdan sonra malların, işlərin və xidmətlərin alıcısına göndərilir.

Odur ki, sahibkarlıq fəaliyyəti məqsədləri üçün mal (iş, xidmət) alınarkən həmin malların (işlərin, xidmətlərin) alınmasını təsdiq edən elektron qaimə-faktura satıcıdan tələb edilərək alınmalıdır.

Vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura, yaxud elektron vergi hesab-fakturasından ən azı biri olmadıqda alıcıya təqvim ili ərzində belə hala -

- birinci dəfə yol verdikdə alınmış malların **10 faizi**,
- ikinci dəfə yol verdikdə **20 faizi**,
- üç və daha çox dəfə yol verdikdə isə **40 faizi** miqdarında maliyyə sanksiyası tətbiq edilir.

Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

**Vergi qanunvericiliyinin tətbiqi və inzibatçılığı ilə bağlı əlavə məlumat almaq üçün Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az), Çağrı Mərkəzinə (195-1) və ya vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2015-ci ilin mart və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2018-ci ilin mart və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının «Sual-cavab» bölməsinə www.taxes.gov.az/www.taxes/faq/sual.html və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi

## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən korrupsiya və digər hüquqpozma hallarına yol verildiyi ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;

* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik departamentinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik departamentinə» qeydi olan məktubları göndərməklə.
Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;

* Daxili təhlükəsizlik departamentinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə.
Ünvan: AZ1073, Bakı şəhəri,
Landau küçəsi 16, Vergilər Nazirliyi,
Daxili təhlükəsizlik departamenti;

* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

beynəlxalq panoram

## Ukrayna vahid sosial sığorta haqqını nəzərdən keçirir

Ölkənin Sosial Siyasət Nazirliyi vahid sosial sığorta haqqı ilə bağlı qaydalarda dəyişiklik edilməsi barədə təklif irəli sürmüşdür. Təklifdə vahid verginin reqressiv şkala üzrə yığılması nəzərdə tutulur. Hazırda vahid sosial sığorta haqqı əməkhaqqının 22 faizini təşkil edir və yüksək maaş alan şəxslərə aid edilmir. Qüvvədə olan qanuna əsasən, bu vergi 15 minimal əməkhaqqı həcmindən artıq olmayan məvaciblərə tətbiq edilir. Bu güzəşt vaxtilə biznesin stimullaşdırılması üçün verilmişdi ki, işçilərin aldığı əməkhaqqı vergidən yayındırılmasın: işəgötürən yüksək maaşla işləyən işçilərinin əməkhaqqını gizlətməkdə maraqlı deyildi, rüsum gəlirlərin bir hissəsindən tutulurdu.

Yeni qanun layihəsində Sosial Siyasət Nazirliyi vergini dərəcələr üzrə gəlirin məbləğinin hamısına aid etməyi təklif edir: əməkhaqqı artdıqca ödəniş azalmaq şərti ilə. Nazirliyin hesablamasına əsasən, bu, ölkənin Pensiya Fonduna əlavə vəsaitlərin cəlb edilməsinə şərait yaradacaq. Lakin ekspertlər belə bir ehtimal da irəli sürürlər ki, yeni dəyişiklik qəbul olunsa, işəgötürənlər yenidən zəhmət haqqını «zərfdə» çatdırmağa üstünlük verəcəklər.

## Qazaxıstanda kasıblar üçün vergi güzəşti tətbiq olunacaq

Prezident Nursultan Nazarbayev parlamentin hər iki palatasının birgə iclasında əməkhaqqı aşağı olan vətəndaşlardan tutulan verginin məbləğini on dəfə azaltmağı təklif etmişdir: «Nisbətən az əməkhaqqı alan qazaxıstanlılara yardım məqsədilə 2019-cu il yanvar ayının 1-dən həmin şəxslərin vergi yükünün on dəfə azaldılmasını və onlardan 1 faiz həcmində vergi tutulmasını təklif edirəm».

Dövlət başçısının sözlərinə görə, bu addımın atılması ölkənin iki milyon sakininin yaşayışına müsbət təsir göstərəcək: «Muzdlu işçilərin üçdə birindən çoxunun - bu, iki milyondan artıq insan deməkdir - əməkhaqqı işəgötürənlərə əlavə vergi yükü düşmədən artacaq». Prezident N.Nazarbayev onu da bildirmişdir ki, gələcəkdə Qazaxıstanda fiziki şəxslərin gəlir vergisinin proqressiv şkalası qəbul edilə bilər.

## Avropadan gətirilən avtomobillərdən rüsum tutula bilər

ABŞ Prezidenti Donald Tramp, Aİ ölkələrinin Amerika şirkətləri üçün işləmək şəraitini pisləşdirməkdə davam edəcəkləri halda, Avropadan gətirilən avtomobillərə vergi tətbiq oluna biləcəyini bəyan etmişdir. «Əgər Avropa İttifaqı orada fəaliyyət göstərən Amerika şirkətləri üçün onsuz da yüksək olan tarifləri gələcəkdə artırmağa davam etsə, biz də ölkəmizə Avropa avtomobillərinin idxalı üçün rüsum tətbiq edəcəyik, - Prezident D.Tramp öz tvitter hesabında yazmışdır. - Onlar bizim avtomobillərin (eləcə də bir çox başqa mallarımızın) orada satılmasını qeyri-mümkün hala gətirmişlər. Bu, ticarətdə böyük natarazlıqdır!».

Bundan əvvəl ABŞ Prezidenti Almaniyadan gətirilən avtomobillərə 35 faizlik idxal rüsumu tətbiq ediləcəyi ilə bu ölkəni hədələmişdi: «Siz ABŞ üçün avtomobil istehsal edə bilərsiniz, lakin bizim ölkəyə gətirilən hər bir avtomobil üçün 35 faiz həcmində vergi ödəməlisiniz. Üzümü «BMW»yə tutub demək istəyirəm ki, Meksikada zavod tikib ki, orada istehsal etdiyiniz avtomobilləri 35 faizlik vergi ödəmədən ABŞ-a satmaq niyyətiniz varsa, bunu yadınızdan çıxara bilərsiniz».

## OECD və Braziliya transfer qiymətqoyma ilə bağlı birgə layihə həyata keçirir

Layihə aidiyyəti şirkətlər arasında transsərhəd əməliyyatların qiymətləndirilməsi üzrə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) ilə Braziliya hökumətinin mövqelərindəki oxşar və fərqli cəhətlərin öyrənilməsini əhatə edir. Layihə OECD-nin müəyyənləşdirdiyi transfer qiymətləndirmə çərçivəsində Braziliyanın potensialını da qiymətləndirəcək və alınacaq nəticələri üzv dövlətlər üçün ümumi istiqamətlər kimi nəzərdən keçirəcək. İşçi proqramın müddəti 15 aydır, bu müddət ərzində Braziliyanın transfer qiymətləndirmə sisteminin hüquqi və idarəetmə bazası, eləcə də transfer qiymətləndirmənin həyata keçirilməsi təhlil olunacaq. OECD-nin beynəlxalq səviyyədə qəbul edilmiş standartları, həmçinin transfer qiymətləndirmə üzrə təlimatı ilə daha uyğun olan variantların araşdırılması zamanı Braziliya təcrübəsinin güclü və zəif cəhətləri yenidən nəzərdən keçiriləcək. «Braziliya OECD-nin əsas tərəfdaşlarından biridir, ona görə də transfer qiymətqoymadakı boşluqların aradan qaldırılması üçün bu addımı birlikdə atmağımızdan məmnunuq, - OECD-nin baş katibi Anxel Qurriya demişdir. - Transfer qiymətqoymanın səmərəli qaydaları ikiqat vergitutmanın aradan qaldırılmasında və vergiyə cəlb olunan gəlirlərin süni şəkildə başqa yurisdiksiyalara köçürülməsinin qarşısının alınmasında həlledici əhəmiyyət daşıyır».

## Avropanın vergi limanları siyahısında «qara boşluqlar» mövcuddur



Şirkətlərin mənsub olduqları dövlətə daha az vergi ödəmək məqsədilə vergi limanlarında - vergilərin dərəcələri aşağı olan ölkələrdə qeydiyyatdan keçməsi ilə bağlı son illərdə dünya miqyasında ciddi tədbirlər görülür. Bu tədbirlərdən biri də vergi limanlarının «qara siyahı»sının açıqlanmasıdır. Müxtəlif tənzimləyici qurumlar bununla vergi dərəcələri aşağı olan yurisdiksiyalara təsir göstərməyə çalışırlar ki, bütün dünyada ədalətli vergi rəqabəti bərqərar olsun.

2017-ci ilin sonunda Avropa İttifaqının tərtib etdiyi «qara siyahı» haqqında qəzetimizdə məlumat vermişdik. Siyahıda maliyyə əməliyyatlarının qanuniliyi ilə bağlı Aİ tərəfindən hazırlanmış meyarlar əsasında dialoqa daxil olmayan, həmçinin aşkar edilmiş nöqsanların aradan qaldırılması üçün səy göstərməyən ölkələr barədə məlumat yer almışdı. Aİ ilə əməkdaşlıq etməyən yurisdiksiyaların siyahısına 17 ərazinin və ölkənin adı daxil edilmişdi ki, buraya Bəhreyn, Barbados, Samoa, Quam, Koreya, Monqolustan, Qrenada, Marşall adaları, Panama, Trinidad və Tobaqo, Tunis, Namibiya, Birləşmiş Ərəb Əmirlikləri və digərləri aid idi.

İspaniyada nəşr olunan «El Pais» qəzetinin dərc etdiyi şərhdə bildirilir ki, vergi limanları ilə bağlı Aİ-nin rəsmi sənədlərinin beynəlxalq səviyyədə aparılan təhlili ayrı-ayrı ölkələrin siyahıya salınmasında və siyahıdan çıxarılmasında müttəfiqlər arasında müəyyən gedişlərin, taktiki manevrlərin olduğunu göstərir.

Keçən ilin sonunda «qara siyahı»nın ictimaiyyətə açıqlanmasından bəri Avropada, demək olar ki, heç nə dəyişməmişdir. Siyahıda əməkdaşlıqdan imtina etmiş 17 yurisdiksiyanın adı verilsə də, dünyanın ən böyük «vergi cənnəti» sayılan İsveçrənin, Bermud və Normandiya adalarının adları oraya daxil edilməmişdi. Bu açıqlamadan az sonra - 2018-ci ilin yanvar ayında siyahıda dəyişiklik edildi və orada cəmi doqquz ölkənin adı saxlanıldı. Həmin siyahıda hətta bütün dünyada səs-küyə səbəb olmuş Panama sənədlərində adları keçən ölkələrin də adlarına rast gəlmirik.

«El Pais» qəzetinə sızdırılmış Aİ sənədləri göstərir ki, siyahının tərtib edilməsi şəffaflıqdan çox uzaq olmuşdur. Siyahı şübhəli meyarlar əsasında hazırlanmış və onu tərtib edən işçi qrup Böyük Britaniya, Lüksemburq, İrlandiya və hətta Fransa kimi dövlətlərin təzyiqi altında olmuşdur. Bu dövlətlər siyahının mümkün qədər «yumşaq» tərtib olunmasına və oraya özlərinin himayə etdikləri yurisdiksiyaların adlarının salınmamasına çalışmışlar.

Vergitutma sistemi transmilli şirkətlər üçün içi diş-diş olan xam pendir kimidir: iri şirkətlər və qurumlar vergilərin az olduğu və ya heç olmadığı vergi limanlarında mikrofiliallar yaratmaq sahəsində ixtisaslaşırlar və bununla vergi oğurluğu faktiki olaraq qanuniləşdirilmiş olur. Aİ-nin tərtib etdiyi siyahını bu sahədə sonun başlanğıcı hesab etmək mümkün ola bilərdi. Lakin Avropa Parlamentindəki «Yaşıllar» qrupundan Avropa Şurasına təqdim edilmiş 19 sənəd bu prosesin tamamilə qeyri-şəffaf olduğunu təsdiqləyir. Avropa Komissiyası da bununla həmrəydir: «Biz bu prosesdə daha çox şəffaflıq görmək istəyərdik, lakin üzv dövlətlər öz mövqelərində güzəştə getmirlər».

Böyük Britaniya Aİ-dən ayrılsa da, keçmiş müstəmləkələrinin mənafeyinə ziyan vuran istənilən fiskal təşəbbüsün sistemli və ardıcıl şəkildə əleyhinə çıxır. Sənədlərdən görünür ki, Böyük Britaniya siyahı tərtibinin metodologiyasını öz arzuladığı istiqamətdə dəyişdirmək üçün mümkün olan hər şeyi etmişdir. Məsələn, Avropa Komissiyasından olan qaynaqların da təsdiq etdiyi kimi, Böyük Britaniya korporativ verginin dərəcəsi 0 faiz və ya 0 faizə yaxın olan ölkələrin siyahıya salınmaması üçün əlindən gələni etmiş, əvvəlcədən müəyyənləşdirilmiş meyarların dəyişdirilməsinə ciddi təsir göstərmişdir.

Birmənalı şəkildə vergi limanı kimi qəbul edilməyən İrlandiya və Lüksemburq on illər boyu Böyük Britaniyanın tələblərinə əməl edərək, vergi rəqabətini aşağı salmağa nail olmuşlar. Lüksemburq adları siyahıya düşmüş ölkələr üçün məcburi olan sanksiyalardan yaxa qurtarmaq üçün təzyiq göstərmişdir. Fransa isə son ana qədər Marokkonun adının siyahıdan çıxarılmasına çalışmışdır.

Aİ-nin «boz siyahı»sına Avropadan 55 yurisdiksiya daxildir, siyahının açıqlamasında qeyd olunmuşdur ki, onlar öz fiskal siyasətlərinin dəyişdirilməsi üçün öhdəlik nümayiş etdirmişlər. Lakin bu öhdəliyin nədən ibarət olduğu aydın deyil, onların «boz siyahı»dan «qara siyahı»ya keçirilməsinin qarşısını almaq üçün görülməli olan əsas tədbirlərin vaxt cədvəli qeyri-müəyyəndir və bu sənədlər hamı üçün açıq deyil. Avropa Parlamentinin «Yaşıllar qrupu» «55 ölkənin qəbul etdiyi öhdəliklər barədə məktubların nəşr olunmasını» tələb edir. Aİ komissarının iqtisadiyyat üzrə mətbuat katibi Pyer Moskovisi bildirmişdir ki, Brüsselin də istədiyi budur, lakin Avropa İttifaqına üzv dövlətlər bu məktubları nəşr etdirməkdən ardıcıl şəkildə imtina edirlər.

## Vergi daxilolmalarının 40 faizi faydalı qazıntılar hesabına təmin olunub

Keçən il Rusiya Federasiyasının konsolidə edilmiş büdcəsinin doldurulmasında hasilat sektoru aparıcı yer tutmuşdur. Federal Vergi Xidmətinin son hesabatında bildirilmişdir ki, xammal sektorundan daxil olan vergilərin rolu ölkə iqtisadiyyatında nəzərəçarpacaq dərəcədə artmışdır.

2017-ci ildə faydalı qazıntıların (daş kömür, neft, qaz, metal filizi və s.) hasilatı sektoru konsolidə edilmiş büdcənin gəlirlərinin 29,2 faizini təşkil etmişdir, bir il əvvəl isə bu göstərici 26,5 faiz idi. Faydalı qazıntıların hasilatından tutulan verginin payı vergi daxilolmalarının artımının ümumi məbləğində 40 faiz olmuşdur.



krossvord

**Yuxarıdan aşağı:** 1.RF-nin Arxangelsk vilayətində çay; 2.Karib dənizində ada; 3.Memarlıq elementi; 4.Teatr, sirk artistləri dəstəsi; 5.Azərbaycanda nəşr olunan satirik karikatura jurnalı; 6.Çox qədim dövrlərin qalığı olan şey, hadisə; 9.Qusar rayonunda kənd; 13.Ölkəmizdə bölgəyə görə fərqlənən şirin xəmir məhsulu; 15.Müsəlman ölkələrinin bəzilərində yayılmış milli baş geyimi; 16.Su, içki və başqa mayelər tökmək üçün şüşədən, yaxud büllurdan hazırlanan dar, uzunboğaz qab; 17.XIX əsrdə yaşamış dünya şöhrətli Avstriya bəstəkarının soyadı. Vals musiqisinə gətirdiyi yeniliklərə görə tanınır və həmin dövrdə Avropada vals kralı hesab olunurdu; 18.Audio-video kaset və ya CD oxudan yüngül və yığcam cihaz; 20.«Bizim küçə» bədii filmində (1961) baş qəhrəman - Sara rolunu oynayan aktrisanın adı; 21.Ötən əsrin 90-cı illərində populyar olan oyun konsolu. **Soldan sağa:** 1.Mağaraların tavanında əmələ gələn konus şəklində əhəng, damla daş; 5.Üç ölkə ərazisindən axan çay; 7.Müxtəlif sənədləri, hüquqi aktları təsdiq etmək vəzifəsi daşıyan rəsmi şəxs; 8.Rusiya, Qazaxıstan ərazilərindən keçib Xəzər dənizinə tökülən çay. Fin və ya qədim türk dilində «aydın gecə» mənasını verir; 10.Azərbaycan rəssamının adı. Əsərləri bir sıra kitab və jurnallarda çap olunub. Bir çox sərgilərin və müsabiqələrin iştirakçısı, «Karikaturaçı Rəssamlar Birliyi»nin üzvüdür; 11.Avtomobil markası; 12.Bank tərəfindən alğı-satqısı həyata keçirilən qiymətli kağızların alış və ya satış kursu; 14.Azərbaycanlı bəstəkar, xalq artisti və əməkdar incəsənət xadiminin adı. Azərbaycanda ilk rok operettasının müəllifi; 19.Qiymətli nadir əşya, hal, xüsusiyyət, kitab, incəsənət əsəri; 21.Kazak qoşunlarında hərbi rütbə və vəzifə; 22.Orta əsr filosofu və ilahiyyatçısı, sxolastikanın sistemləşdiricisi, tomizmin banisinin adı; 23.Ölkəmizdə çay; 24.RF-nin Komi Respublikasında çay; 25.Xristian olmayan əhali arasında xristianlığı yaymaq üçün kilsə tərəfindən göndərilən şəxs.



Bəzi müsəlman ölkələrində milli baş geyimi

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Rokoko; 2.Xomeyni; 3.Annan *(Kofi)*; 4.İmanov *(Lütfiyar)*; 6.Antuko; 7.Ucar; 9.Nadir; 13.Jest; 15.Servant; 16.Necati *(Şaşmaz)*; 17.Prelat; 18.Lenotr *(Andre)*; 20.İrbis; 21.Kloun. **Soldan sağa:** 1.Raxmaninov *(Sergey)*; 5.Fa; 8.Kamança; 9.Nicat; 10.Kiyan; 11.Obdorks; 12.Birja; 14.Brass; 19.Eliksir; 21.Korşe; 22.Amba; 23.Eldorado ; 24.İks; 25.Detonator.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

idman

# Azərbaycanın parlament komandası beynəlxalq turnirin qalibi oldu

Martın 11-də Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin 100 illik yubileyinə həsr olunan parlament komandalararası beynəlxalq futbol turnirinə yekun vurulub. Ölkəmizin parlament futbol komandası beynəlxalq turnirin qalibi olub.

«İnter Arenada keçirilən final oyununda Azərbaycan və Ukrayna komandaları qarşılaşıblar. Oyunun gedişini Milli Məclisin sədri Oqtay Əsədov, parlamentin digər vəzifəli şəxsləri və nümayəndə heyətlərinin üzvləri izləyiblər. Əvvəlcə hər iki ölkənin dövlət himnləri səsləndirilib. Oyunda topa ilk toxunuşu Azərbaycanın gənclər və idman naziri Azad Rəhimov va Türkiyənin gənclər və idman naziri Osman Aşkın Bak ediblər.

Komandaların cəhdlərinə baxmayaraq oyunun birinci hissəsində hesab açılmayıb. İkinci hissəyə daha fəal başlayan Azərbaycan komandası 36-cı dəqiqədə Əli Abişovun qolu ilə hesabda önə çıxıb. Matçın 60-cı dəqiqəsində Ukrayna komandasının üzvü Oleq Osuxovski hesabı bərabərləşdirib. Qarşılaşmanın sonuncu dəqiqəsində Musa Qurbanovun qolu ilə Azərbaycan komandasının qələbəsi rəsmiləşib. Beləliklə, Azərbaycan komandası görüşdən 2:1 hesablı qələbə ilə ayrılıb.



Matç başa çatdıqdan sonra mükafatlandırma mərasimi təşkil olunub. Beynəlxalq turnirin iştirakçı komandalarının üzvlərinə medallar və kubok təqdim olunub. Mükafatları Azərbaycanın gənclər və idman naziri Azad Rəhimov və Milli Məclis sədrinin birinci müavini Ziyafət Əsgərov təqdim ediblər.

Xatırladaq ki, turnirdə Azərbaycan Milli Məclisinin, Türkiyə Böyük Millət Məclisinin, Ukrayna Ali Radasının, Polşa və Latviya seymlərinin komandaları yarışıblar.

# «Synergy Baku» Qran-Prinin ən yaxşı komandası olub

Türkiyənin Side bölgəsində Beynəlxalq Velosipedçilər İttifaqının 1.2 kateqoriyalı Side Qran-Prisi keçirilib. Birgünlük yarış «Synergy Baku» kontinental komandamız üçün uğurlu alınıb.



Azərbaycan Velosoped İdmanı Federasiyasının yaydığı məlumata görə, yarışda Elçin Əsədov, Samir Cəbrayılov, Aleksandr Polivoda, Musa Mikayılzadə, Kərim Şirəliyev, Kənan Qəhrəmanlı və Telman Vəliyevdən ibarət heyətlə mübarizə aparan komandamızın heyətində ən yüksək nəticəyə Samir Cəbrayılov imza atıb. Əla komanda işinin nəticəsi olaraq finiş xəttinə 4 nəfərlik kiçik qrupun tərkibində gələn S.Cəbrayılov 184,9 kilometr məsafəni 4 saat 16 dəqiqə 23 saniyəyə başa vurub və fotofinişə əsasən ikinci olub. Bu nəticə, həmçinin, idmançımıza 30 reytinq xalı da qazandırıb.

«Synergy Baku»nun digər üzvü Aleksandr Polivoda isə qalibdən 5 saniyə geri qalaraq 5-ci yeri tutub və bununla da klubumuzun aktivinə daha 15 xal əlavə edib. Komanda hesabına gəlincə, «Synergy Baku» ən yaxşı göstəriciyə imza atmaqla xüsusi mükafatla təltif edilib.

# Taekvondoçuların yeni reytinq cədvəli açıqlandı

Dünya Taekvondo Federasiyasının Olimpiya çəkiləri üzrə yeni reytinq cədvəli Azərbaycan idmançıları üçün uğurlu olub. Mart ayı üçün tərtib olunan siyahıda yığmamızın üç taekvondoçusu yer alıb.




Hesabında 423,14 xal olan «Rio-2016» Yay Olimpiya Oyunlarının qalibi, dünya və Avropa çempionu Radik İsayev 80 kiloqramdan yuxarı çəki dərəcəsində ikinci pillədədir. Dünya çempionu və Olimpiya mükafatçısı Milad Beigi Hərçeqani də (80 kq) 444,93 xalla reytinq cədvəlində ikinci yerdə qərarlaşıb. Altmış səkkiz kiloqram çəki dərəcəsində «Bakı-2015»in və İslamiadanın çempionu olan Ayxan Tağızadə isə 197,23 xalla səkkizinci pillədə yer alıb.

Qeyd edək ki, reytinq xalları Dünya Taekvondo Federasiyasının təşkil etdiyi yarışlarda idmançıların aktivinə yığılan xallara əsasən verilir. Taekvondo qaydalarına görə, 2020-ci ildə Tokioda keçiriləcək Yay Olimpiya Oyunlarınadək reytinq xalları sayəsində cədvəldə ilk altılıqda olacaq idmançılar olimpiadaya birbaşa vəsiqə qazanacaqlar.

mozaika

texnologiya

## Xilasedicilər üçün «ağıllı gödəkcə»




«Nokia» şirkəti Koreya Respublikasının «Kolon» geyim şirkəti ilə birgə İspaniyanın Barselona şəhərində mobil sənayenin ən böyük sərgisi olan «Mobile World Congress 2018»də xilasedicilər və polislər üçün hazırladığı «ağıllı gödəkcə»ni təqdim edib.

«CHASE Life Tech FR» zahirən polis və yanğınsöndürənlərin parlaq gödəkcələrinə bənzəyir. Əsas fərq onun ürək döyüntüsünün tezliyini və bədən temperaturunu qeydə alan modulyar sensorlar, GPS və akselerometrlə təchiz edilməsindədir. Onların əvəzinə konkret vəziyyətdə lazım olacaq sensorlar (məsələn, dəm qazı sensorları) quraşdırmaq mümkündür.

Gödəkcə vasitəsilə əldə olunan məlumatlar baza stansiyasına ötürülür ki, burada idarəetmə bloku onları real vaxt rejimində təhlil edir. Bu, xüsusilə polis və ya yanğınsöndürənin qəza vəziyyətində əlaqə qura bilməməsi zamanı kömək edə bilər.

Gözəl dizayna malik olan «CHASE Life Tech FR» gödəkcəsi hər kəs tərəfindən qəbul olunan dünya brendlərindən heç də geri qalmır. Bundan başqa, gödəkcənin hissələri müəyyən praktik funksiyaları yerinə yetirir. Məsələn, parça keçiricilik qabiliyyətinə malikdir, GORE-TEX materialından hazırlanmış 3M-detallar isə yağış və qar suyunu keçirmir. Bütün sensorları çıxarmaq mümkündür ki, bu da gödəkcəni asanlıqla yumağa imkan verir. «Nokia» və «Kolon» şirkətləri adi vətəndaşlar üçün də belə gödəkcələr hazırlamağı planlaşdırır.

sağlamlıq

## Kardioloqların «rəqibi»




«Google şirkəti uzun müddətdir ki, tibb sahəsində müasir texnologiyaların tətbiqinə böyük maraq göstərir. Belə ki, daha əvvəl şirkətin mütəxəssisləri şəbəkənin insanların gözlərinin şəkilləri üzrə diabetik retinopatiyanın (göz damarlarının zədələnməsi) olub-olmadığını bilməsi üçün xüsusi alqoritmlərdən istifadə etməklə bağlı təklif irəli sürüblər.

Ekspertlər hesab edirlər ki, artıq süni intellekt insanın infarkt və ya digər ürək-damar xəstəlikləri ilə rastlaşması riskini müəyyənləşdirə bilər. Belə ki, «Google»un neyroşəbəkəsi proqrama yüklənmiş tibbi məlumatlarla əldə olunmuş informasiyanı müqayisə edərək, pasiyentin gözünün qan damarlarının təsvirini emal edə bilər.

İnformasiyanın emalını daha da sürətləndirmək üçün neyroşəbəkə, həmçinin, pasiyentin tibbi kartına yazılmış müalicə və diaqnostikanın nəticələrindən istifadə edə bilər. Məsələn, damarların vəziyyətinin yoxlanılması və xəstəliklərin proqnozlaşdırılması zamanı ürək-damar sisteminə mənfi təsir edən amillər (daha əvvəl keçirilmiş xəstəliklər, zərərli vərdişlər və s.) haqqında məlumatlardan istifadə etmək mümkündür. İstehsalçılar neyroşəbəkənin növbəti beş il ərzində sağlamlıqla bağlı problemləri yetmiş faiz dəqiqliklə proqnozlaşdıracağını bildiriblər.

mədəniyyət

## Yaponiyada «Azərbaycan mətbəxi məktəbi»

Tokio şəhərində fəaliyyətə başlayan «Azərbaycan mətbəxi məktəbi»nin ilk məşğələsi keçirilib. Yaponiya paytaxtının Mequro rayonunda yerləşən Tsurumaki Beynəlxalq Əməkdaşlıq Mərkəzində təşkil olunan ilk məşğələdə məktəbin təşkilatçıları - Yaponiyada yaşayan azərbaycanlı xanımlar Nərminə Aslanova və Dinarə Ələkbərova ölkəmiz, onun coğrafi mövqeyi, dövlət atributları, zəngin mədəniyyəti və mətbəxi haqqında məlumat veriblər. Qeyd ediblər ki, öz keyfiyyəti ilə seçilən və bütün dünyada «Made in Azerbaijan» brendi ilə tanınan bir çox ərzaq məhsulları və içkilər artıq Yaponiya bazarında da özünə yer tutur.



Diqqətə çatdırılıb ki, məktəbin təşkilində məqsəd Azərbaycan mədəniyyətini, onun zənginliyi və tamı ilə seçilən milli mətbəxini yaponlara yaxından tanıtmaqdır. Məşğələlər zamanı yapon xanımların iştirakı ilə Azərbaycanın milli yeməklərinin hazırlanma sirləri iştirakçılara öyrədiləcək.

Tədbirdə Azərbaycan mətbəxinin nümunələrindən küftə-bozbaş, badımcan dolması və limon şərbəti hazırlanıb. Xalqımızın qədim və zəngin mətbəxinin bu nümunələrinin hazırlanması qaydası və lazım olan inqrediyentlər barədə yapon xanımlara ətraflı məlumat verilib. Yapon xanımların iştirakı ilə hazırlanan bu yeməklər qonaqlara təqdim edilib.

Məşğələnin iştirakçıları Nana Yamada və Gunko Yamamoto AZERTAC-ın Yaponiyadakı xüsusi müxbirinə bildiriblər ki, Azərbaycan mədəniyyəti, onun milli yeməkləri məşğələ iştirakçıları tərəfindən böyük maraqla qarşılanıb: «Dadlı yeməklə yanaşı, Azərbaycan şərabının və nar şirəsinin dadı ilə də tanış olduq. Hamısı çox ləzzətli idi. Düşünürük ki, bu məşğələlər zəngin mədəniyyətinizin və mətbəxinizin Yaponiyada təbliği baxımından çox əhəmiyyətli olacaq. Doğrudur, Yaponiyada da tərəvəz və ətlə müxtəlif yeməklər hazırlanır. Lakin onların heç biri küftə-bozbaşın və ya badımcan dolmasının dadını vermir. Limon şərbəti də çox xoşumuza gəldi».

Məktəbin növbəti məşğələlərində yapon xanımlara Azərbaycan şirniyyatlarının da hazırlanmasını öyrətmək nəzərdə tutulur.

cəmiyyət

## Ekoloji fitnesin yeni istiqaməti

Avropada və ABŞ-da eyni zamanda həm sağlamlığın, həm də planetimizin qayğısına qalmağa imkan verən yeni fitnes istiqamət populyarlaşır.

İsveçdə yaranan ploqqinq (ingilis dilində - plogging) sosial şəbəkələr sayəsində bütün dünyada tərəfdarlar toplamaqdadır. Onun adı ingilis mənşəli «jogging» - «qaçış» və İsveç mənşəli «plocka upp» - «götürmək» sözlərindən əmələ gəlib. Açıq havada adi qaçışdan fərqli olaraq, ploqqinqlə məşğul olan adam qaçmaqla bərabər, küçələrdən zibil toplayır. Bununla da o, həm ətraf ərazini zir-zibildən təmizləyir, həm də asta qaçışdan fərqli olaraq, daha çox kalori sərf edir. Çünki zibili yerdən götürmək üçün əyilmək və çömbəlmək lazımdır. Bu da idman zalında məşğələlərə bərabər əlavə fiziki hərəkətlərdir.

ABŞ-ın Virciniya ştatının sakini Emili Raytın rastına çox vaxt siqaret kötükləri, plastik butulkalar və uşaq əskiləri çıxır. Onun fikrincə, belə bir ideyanın ictimaiyyət üçün faydası bir qədər mübahisəli məsələdir. O deyib: «Məsələ onda deyil ki, mən iyrənirəm. Mən bunu edirəm. Amma eyni zamanda düşünürəm ki, hər bir insan öz hərəkətlərinə görə məsuliyyət daşımalıdır».

**Müdriklər deyib ki...**

***«Başqaları yazdıqları kitablarla öyünür, mənsə oxuduqlarımla».***

**Xorxe Luis Baorxes (1899-1986)**

